QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 130 (5850) **20 iyul** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan və Türkiyə Prezidentləri arasında telefon danışığı olub



Səh 2

4

**Mütərəqqi ideyaların carçısı olan "Əkinçi"nin yaranma tarixindən 144 il ötür**



8

**Azad söz azad cəmiyyətin təməl daşıdır**



13

**Leyla Yunus Elçibəyi təhqir etdi, Əli Kərimli isə susdu**



# “Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında əlaqələr yüksək səviyyədə inkişaf edir”

*Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Ədliyyə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Vəlid bin Məhəmməd Əl-Səmaaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ölkələrimizin ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi və Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Vəlid bin Məhəmməd Əl-Səmaaninin Azərbaycana səfərinin bu əlaqələrin inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi. Xalqlarımız arasında münasibətlərə toxunan Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığından Azərbaycana gələn turistlərin sayının daim artmasını bu münasibətlərin yaxşı göstəricisi kimi dəyərləndirdi. Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Vəlid bin Məhəmməd Əl-Səmaani, ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdırdı. Qonaq vurğuladı ki, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Azərbaycanla əlaqələrin yüksək səviyyədə olduğunu bildirib və bu əlaqələrin daha da inkişaf etdirilməsi əzmini ifadə edib. Vəlid bin Məhəmməd Əl-Səmaani paytaxtımızda gördüyü inkişaf proseslərinin dərin təəssürat yaratdığını qeyd etdi. O, Bakıda azərbaycanlı həmkarları ilə görüşlərin uğurla keçdiyini, Azərbaycanın ədliyyə sistemi sahəsində əldə olunan yeniliklərin maraq doğurduğunu dedi.

Prezident İlham Əliyev İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və Vəliəhd Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına və Vəliəhdinə çatdırmağı xahiş etdi. Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif aspektləri müzakirə edildi.

## Azərbaycan və Türkiyə Prezidentləri arasında telefon danışığı olub



İyulun 19-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Telefon söhbəti zamanı dövlət başçıları ikitərəfli münasibətləri və qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.

# “Qətər Dövləti Azərbaycanla əlaqələrə böyük önəm verir”

*Prezident İlham Əliyev Qətərin Bələdiyyə və Ətraf Mühit nazirini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Qətərin Bələdiyyə və Ətraf Mühit naziri Abdullah bin Abdulaziz bin Turki Al-Subaieni qəbul edib. AZƏRTAC xəbər verir ki, nazir Abdullah bin Abdulaziz bin Turki Al-Subaie Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin salamlarını dövlətimizin başçına çatdırdı. O, Azərbaycanda müvafiq qurumların rəhbərləri ilə müxtəlif istiqamətlərdə əməkdaşlığın perspektivləri barədə səmərəli müzakirələrin aparıldığını diqqətə çatdırdı.***

Dövlətimizin başçısı Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qətər Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Qətərin Bələdiyyə və Ətraf Mühit naziri Abdullah bin Abdulaziz bin Turki Al-Subaienin Azərbaycana səfərinin iki ölkə arasında əlaqələrin genişlənməsi işinə töhfə verəcəyinə əmin olduğunu bildirdi.

Söhbət zamanı ekologiya, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Nazirlər Kabinetində Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyanın iclası keçirilib





***İyulun 19-da Nazirlər Kabinetində Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyanın növbəti geniştərkibli iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Baş Nazirin müavini, komissiyanın sədri Əli Həsənovun yanında keçirilən iclasda yerlərdə əhalinin siyahıyaalınmasına yardım komissiyalarının sədrləri olan rayon, şəhər və şəhər rayonlarının icra hakimiyyəti başçılarının müavinləri, müvafiq dövlət qurumlarının rəhbərləri və nümayəndələri iştirak ediblər.***

Baş Nazirin müavini Əli Həsənov bildirib ki, əhalinin siyahıyaalınması Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" Fərmana uyğun aparılır. Nazirlər Kabinetinin 2016-cı il 16 dekabr tarixli qərarı ilə yaradılan komissiyanın bugünkü geniş iclasının keçirilməsində əsas məqsəd siyahıyaalma prosesini ətraflı müzakirə etmək, hazırlıq işlərini nəzərdən keçirməkdir. Komissiya sədri əminliyini ifadə edib ki, ölkəmiz üçün vacib olan bu proses yüksək səviyyədə baş tutacaq. Bu proses əhalinin sayı, yerləşməsi, miqrasiyası və tərkibi, habelə müəyyən bir dövr üzrə vacib olan xüsusiyyətləri barədə ətraflı və müntəzəm məlumatlara olan ehtiyacla şərtlənir. Eyni zamanda, bu proses dövlətin vahid statistik metodologiyası əsasında həyata keçirilir və cəmiyyətdəki vəziyyət haqqında, onun iqtisadiyyatı, sosial sahəsi, mənəvi dəyərləri və sair barədə mühakimə yürütməyə imkan verir. Siyahıyaalma ölkənin həyatında mühüm bir tədbirdir və onun müvəffəqiyyətlə keçirilməsində bu prosesdə iştirak edən hər bir şəxsin üzərinə böyük məsuliyyət düşür.

İclasda bildirilib ki, siyahıyaalma prosesinə 43 min insan cəlb olunacaq. Artıq siyahıyaalma materialları hazırdır. Əhalinin sayına uyğun sorğu vərəqələri çap edilib. 28 bənddən ibarət sorğu vərəqələrində 46 sual üzrə 280-ə yaxın göstərici yer alıb. Əhalinin bu sorğulara tam, dolğun cavab verməsi mühüm əhəmiyyət kəsb edir. Bu prosesin əhaliyə geniş şəkildə çatdırılması üçün KİV-lərin üzərinə böyük vəzifə düşür.

Sonra komissiyanın üzvləri - Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova, Xarici İşlər nazirinin müavini Nadir Hüseynov və Daxili İşlər nazirinin müavini İsmət Əliyev hazırlıq prosesi ilə bağlı ətraflı məlumat veriblər.

İclasın sonunda müvafiq dövlət qurumlarına aidiyyəti üzrə tapşırıqlar verilib. Qeyd edək ki, Azərbaycan qanunvericiliyinə görə hər 10 ildən bir baş tutan əhalinin siyahıyaalınması prosesi növbəti dəfə 2019-cu ilin 1-10 oktyabr tarixlərində keçiriləcək.

# Almaniyanın "Reutlinger Anzeiger" qəzeti Azərbaycandakı alman irsindən yazır

Almaniyanın "Reutlinger Anzeiger" qəzetində Azərbaycandakı alman irsinə həsr olunmuş "Qafqazda Roytlingen izləri" adlı məqalə dərc edilib. Müəllifi Renate Föll olan məqalədə 200 il öncə Almaniyadan Azərbaycana köç edən almanlar arasında Roytlingenli (Reutlingen) almanların da olduğu bildirilir. Roytlingendən olan almanların öz əcdadlarının vətənini ziyarət etmək məqsədilə Qafqazda keçirilən yubiley tədbirlərinə qatılmaq üçün Azərbaycana səfər etdikləri qeyd olunur.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın Göygöl rayonu haqqında məlumat verilir, onun vaxtilə Helenendorf adlandırılan alman koloniyasının əsasında qurulduğu vurğulanır. Rayonun eyni adlı mərkəzində 20 min sakinin yaşadığı, onların böyük bir qismini Ermənistan tərəfindən işğal edilmiş Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən gələn məcburi köçkünlərin təşkil etdiyi nəzərə çatdırılır. Burada artıq almanların yaşamadığı, onların Stalin tərəfindən 1941-ci ildə deportasiya olunduğu bildirilir.

Şəhərdə almanlara məxsus arxitektura əsasında inşa edilmiş evlərdən söz açılır, onlara xas olan səciyyəvi arxitektura təsvir edilir. Burada 1857-ci ildə yeni qotik üslubda inşa edilmiş evangelik kilsənin mövcud olduğu qeyd olunur. Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin kilsənin bərpasına töhfə verdiyi vurğulanır. Azərbaycan hökumətinin alman arxitektura nümunələrinin qorunub saxlanılması istiqamətində böyük işlər gördüyü nəzərə çatdırılır.

Səfər edən qrupun tərkibində öz əcdadlarının ikinci vətənini ziyarət etmək istəyən almanların olduğu, onların bundan öncə də Azərbaycana səfər etdikləri, onların bəzilərinin Azərbaycanda məskən salmış Forer, Kehrer və Hurr kimi məşhur alman ailələrinin törəmələri olduğu bildirilir.

Məqalədə Helenendorf irsi ilə məşğul olan Berlin Humboldt Universitetinin Azərbaycan Tarixi Kafedrasının rəhbəri professor Eva Mariya Aux tərəfindən turistik bələdçinin hazırlandığı və buraya gələn almanlara məlumat verdiyi qeyd olunur.

Yazıda Yulius və Hermine Forerin evi haqqında məlumat verilir, evdə regional muzeyin qurulduğu, onların nəvəsi və nəticəsinin hazırkı qrupun tərkibində öz əcdadlarının evini ziyarət etdiyi bildirilir. Qrup üzvlərinin əllərində plan ilə alman evlərini ziyarət etdikləri, və öz əcdadlarının evləri ilə tanış olduqları vurğulanır. Qizela Rasperin öz əcdadlarına məxsus olan Fottelerlərin evini tapdığı, evin indiki sakinlərinin onu səmimi qəbul etdiklərini və səfərləri zamanı evi ziyarət etdiyi diqqətə çatdırılır.

Alman Kristof Forerin (Christoph Vohrer) nəvəsi olan, hazırda Rusiyanın Sankt-Peterburq şəhərində yaşayan Marianna Rıbkin və onun oğlu Mixailin öz əcdadlarının evini ziyarət etdikləri vurğulanır. Mariannanın anası Elizabet Malzevin 1906-cı ildə dünyaya gəldiyi və Kristof Forerin qızı olduğu bildirilir. Onun 1979-cu ildən etibarən mütəmadi olaraq öz əcdadlarının vətəni olan Roytlingenə səfər etdiyi və nəhayət orada məskən saldığı qeyd olunur. Onların ilk dövrlərdə Azərbaycana səfər edə bilmədikləri, lakin xatirələrində uşaq olarkən Çilli adlı atla və atasının ona hədiyyə etdiyi xəncərlə Göygöldə at çapdığı günləri, axşamlar evlərdən gələn musiqi səslərini yad etdiyi bildirilir. İndi isə Marianna və onun oğlu Mixailin Kristof Forerin evini axtardıqları və axtarışlarının uğurla nəticələndiyi vurğulanır.



14. Juni 2019, 11:50 / Ressort: stadt / E-Tag: 15.06.2019

In diesem Jahr wird das 200. Gründungsjubiläum der Kolonie Helenendorf bei Gandscha (Aserbaidschan) begangen. Zahlreiche Familien aus Reutlingen gehörten zu den schwäbischen Siedlern, die um 1817 das drangvolle Leben in Württemberg hinter sich ließen. Nun fuhren Nachfahren und Interessierte zu den Jubiläumsfeierlichkeiten in den Kaukasus, mit dabei auch Reutlinger und Tübinger sowie Kulturamtsleiter Dr. Werner Ströbele

## Reutlinger Spuren im Kaukasus

Almanların Azərbaycanda məskən salmasının 200 illik yubileyi münasibətilə Göygöl rayonunda tədbirlərin keçirildiyi, rayon icra hakimiyyətinin başçısı Arif Seyidov və Roytlingenin mədəniyyət bölməsinin rəhbəri Verner Ströbelenin iştirak etdiyi tədbirdə Azərbaycandakı alman irsinin qorunub saxlanılması istiqamətində görülən işlərdən söz açıldığı, regionda məskən salmış almanlar arasında 22 Roytlingenli ailənin də olmasının bildirildiyi nəzərə çatdırılır. Verner Ströbelenin tədbirdə çıxış edərək 22 Roytlingenli ailənin hazırkı Göygölün salınmasında iştirak etdiyini, hər Roytlingenlə Göygöl arasında xüsusi bağın olduğunu, bunun onları birləşdirdiyini, hər iki şəhərin Helenendorf və onun sakinlərinin tarixi irsini qoruyub saxlamağa çalışdığını söylədiyi bildirilir.

Tədbirin növbəti günü qrupun Göygöldəki alman qəbiristanlığını ziyarət etdiyi və öz əcdadlarının yad etdikləri bildirilir. Məzarların bəzilərinin üzərindəki yazılar təsvir edilir və onlardan bəzilərinin rus dilində tərcüməsinin də olduğu qeyd olunur. Məqalədə Azərbaycanda sonuncu alman hesab edilən Viktor Klayndan söz açılır, onun 1936-2007-ci illərdə yaşadığı qeyd olunur. Onun öz evini Almaniyanın Azərbaycandakı səfirliyinə hədiyyə etdiyi və evin əsasında muzeyin yaradılmasının nəzərdə tutulduğu diqqətə çatdırılır.

Qrupun qəbiristanlıqdan sonra şəhərin mərkəzinə gəldiyi, yubiley tədbirləri münasibətilə buradakı Yohannes kilsəsində bayram ayininin keçirildiyi vurğulanır. Kilsənin sovetlər dönəmində idman zalı kimi istifadə olunduğu, hazırda burada keçirilən tədbirlərin və dinin ayinlərin alman və rus dillərində təşkil olunduğu diqqətə çatdırılır. Dini ayinin 200 il öncə Azərbaycana köç etmiş Vürtemberq almanlarına həsr edildiyi qeyd olunur. Məqalədə Göygöl rayonunun ərazisində yerləşən alman irsini əks etdirən şəkillər yerləşdirilib.

# Mütərəqqi ideyaların carçısı olan "Əkinçi"nin yaranma tarixindən 144 il ötür

***Azərbaycanın ictimai həyatının ən mühüm hadisələrindən biri olan milli mətbuatın formalaşması XIX əsrin ortalarına təsadüf edir. Azərbaycan və eləcə də, bütün Şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyət vasitəsi olan mətbuatın yaranması böyük əks-səda doğurdu. Milli mətbuatımızın bünövrəsi 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsinin nəşri ilə qoyuldu. Bu qəzetin naşiri də, redaktoru da, korrektoru da Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas-alim Həsən bəy Zərdabi idi. Qəzetin ərsəyə gəlmisində Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa ziyalıların böyük xidmətləri olmuşdur. Dövrünün görkəmli maarifçiləri olan bu şəxsiyyətlər "Əkinçi" qəzetinin səhifələrində maarifçi və demokratik ideyalarını təbliğ edərək, ictimai-siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər.***





Mütərəqqi ideyaların carçısı və tribunası olan "Əkinçi" elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc edirdi. Qəzetin qazandığı ən böyük uğurlar, ilk növbədə, onun dilinin xalq dilinə yaxın, sadə və səlis olması idi. Xalqın elmi və mədəni cəhətdən tərəqqi etməsi uğrunda çalışan "Əkinçi" xalqı cəhalətdən, fanatizmdən uzaqlaşdırmaq, onlara hüquqlarını anlatmaq, xalqın savadlanmasına kömək məqsədi ilə misilsiz iş görür. Cəmi 56 sayı işıq üzü görən qəzet ayda iki dəfə 300-400 tirajla nəşr edilib və müxtəlif mövzularda xəbərlər və məqalələr dərc olunub.

## MAARİFLƏNMƏ VƏ DEMOKRATİKLƏŞMƏ UĞRUNDA MÜBARİZƏ

"Əkinçi" qəzeti Azərbaycan tarixinə yazılan şərəfli səhifələrdən biridir. Bu qəzet cəmi 2 il fəaliyyət göstərsə də, xalqımızın mədəniyyət tarixində böyük ad qoyub.

1877-ci ildə "Əkinçi" qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq, ölkəmizdə bir müddət azərbaycanca mətbu orqan nəşr edilmişdi. Ölkədə cərəyan edən ictimai proseslər və cari məsələlər bir müddət yerli rusdilli mətbuatda öz əksini tapırdı. Bakıda rus dilində çıxan ilk qəzet isə, birinci nömrəsi 1871-ci ilin mart ayında işıq üzü görən "Bakinski listok" olmuşdur. 1876-cı ildə ikinci rusdilli qəzet "Bakinskiye izvestiya" nəşrə başlamışdır.

1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tiflisdə "Ziyayi-Qafqaziyyə" qəzetini çıxarmağa nail olmuşdu. Qəzetin cəmi 104 nömrəsi çıxdıqdan sonra 1880-ci ildə, o, çapını dayandırmışdı. 1883-1891-ci illərdə Tiflisdə "Əkinçi" üslubunu davam etdirən "Kəşkül" qəzeti və jurnalı çıxırdı. XX əsrdə isə, Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şaxtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzeti olmuşdu. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olmuşdu. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı.

Artıq "Şərqi-rus" qəzeti ətrafında formalaşmış yaradıcı heyət Azərbaycanda mətbuatın inkişafının yeni mərhələsinin başlanması üçün zəmin yaratdı. Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə 1906-cı il aprelin 7-də Tiflisdə həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı - "Molla Nəsrəddin" işıq üzü gördü. Mütərəqqi ideyaların carçısı olan "Molla Nəsrəddin" jurnalı müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı amansız satira atəşinə tutur, Azərbaycan dilinin saflığı uğrunda ardıcıl mübarizə aparırdı. Bütün təqib və təzyiqlərə baxmayaraq, "Molla Nəsrəddin"in haqq səsi, çox keçmədən, Qafqazın hüdudlarını aşıb Rusiyada, türk aləmində, bütün Yaxın və Orta Şərqdə eşidildi.

Ardı Səh. 5

# Mütərəqqi ideyaların carçısı olan "Əkinçi"nin yaranma tarixindən 144 il ötür

Əvvəli-Səh-4

Jurnalın mövzu və təsir dairəsi çox geniş idi. "Molla Nəsrəddin"in müasir ədəbiyyat, maariflənmə, demokratikləşmə uğrunda mübarizəsi, onun güclü satirası jurnalda əməkdaşlıq edən şair və yazıçıların yaradıcılıq istiqamətini müəyyən etmiş, onların görkəmli sənətkar kimi formalaşmasında həlledici amil olmuş, beləliklə də, "Mollanəsrəddinçilik" adlı böyük bir ictimai-ədəbi hərəkat yaranmışdı.

Azərbaycanın 1918-ci il mayın 28-də öz müstəqilliyini qazanmasında milli mətbuatın da mühüm rolu olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin bütün xadimlərinin həm bir lider kimi formalaşmasında, həm də onların siyasi fəaliyyətinin gerçəkləşdirilməsində mətbuatın misilsiz xidmətləri vardır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ümummilli platformadan çıxış edən "Azərbaycan" qəzetinin dahi Üzeyir bəy Hacıbəyov tərəfindən nəşr edilməsi ictimai-siyasi proseslərin milli mədəniyyətin inkişafı ilə nə qədər bağlı olduğunun ən bariz nümunəsidir. Əslində, Cümhuriyyət dövrü mətbuatının fəaliyyəti Həsən bəy Zərdabi ideyalarının, "Əkinçi" prinsiplərinin həyata keçirilməsinin yeni və çox mühüm mərhələsi idi. 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1921-ci ildə nəşrə başlayan "Maarif" və "Qırmızı günəş", 1923-cü ildən çıxan "Gənc pioner", 1927-ci ildən çıxan "Pioner" jurnalları, "Azərbaycan pioneri" qəzeti və s. mətbuat orqanlarını qeyd etməliyik.

1923-cü il ildə Bakıda Şərq qadınlarının, xüsusilə, Azərbaycan qadınlarını ictimai-siyasi həyata alışdırmaq məqsədilə aylıq, ədəbi, ictimai və siyasi jurnal olan "Şərq qadını" nəşr olunub. 1938-ci ildən "Şərq qadını", "Azərbaycan qadını" adı ilə nəşr olunmağa başlayıb.

1934-cü il sentyabrın 2-də "Kommunist maarifi" qəzeti nəşrə başladı. 1938-ci ildə adı dəyişdirilərək, "Müəllim qəzeti" adlandırıldı. Sonrakı illərdə "Ədəbiyyat", "Azərbaycan pioneri", "Kirpi" jurnalı, "Bakı" və s. qəzetləri meydana gəlmişdir.

### DEMOKRATİK MƏTBUATIMIZ AZADLIQ VƏ MÜSTƏQİLLİK DƏYƏRLƏRİNİN TƏBLİĞÇİSİNƏ ÇEVRİLDİ

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, həyatın bir çox sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yarandı, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirildi. Azərbaycan mətbuatının sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxardı.

Azərbaycan müstəqilliyini qazandıqdan sonra yeni demokratik mətbuatımız azadlıq və müstəqillik dəyərlərinin təbliğatçısına çevrildi.



1993-cü ildən başlayaraq, KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Lider Heydər Əliyevin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində, gerçəkləşdi. Ulu Öndər Heydər Əliyevin milli mətbuata olan münasibəti və qayğısı nəticəsində formalaşma və inkişaf prosesində bir sıra təbii və süni maneələrlə üzləşmiş azad, demokratik mətbuatımız cəmiyyətin operativ, obyektiv informasiyaya tələbatını cavablandırmağa nail oldu. Ulu Öndər KİV-in maddi-texniki bazasının yeniləşdirilməsi və möhkəmləndirilməsi, sərbəst fəaliyyət üçün əlverişli şərait yaradılması ilə bağlı həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər milli mətbuatımızın tarixinin mühüm faktlarıdır. "Jurnalistlərin dostu" adını qazanmış Ulu Öndər Heydər Əliyev, ölkəmiz müharibə şəraitində yaşasa da, böyük cəsarətlə əvvəlcə hərbi senzuranı, 1998-ci ilin avqustunda isə, bütövlükdə, KİV üzərində dövlət senzurasını ləğv etdi. Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edildi. Bu Fərman kütləvi infromasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi.

### ÖLKƏMİZDƏ MƏTBUATA GÖSTƏRİLƏN DÖVLƏT QAYĞISI DAVAMLI VƏ SİSTEMLİ SƏCİYYƏ DAŞIYIR

Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş şəkildə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqlarının möhkəmlənməsi prosesi sürətləndikcə, Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atır. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Dövlət başçısı İlham Əliyevin səyləri ilə qəzet-jurnalların maliyyə-təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaradılıb, onların borcları ləğv edilib. Ölkəmizdə mətbu nəşrlərin sərbəst fəaliyyətinə və jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etməsinə bütün imkanların yaradılmasına tam şərait var. 2005-ci il 21 iyul tarixində "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", habelə, "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamların imzalanması jurnalistlərin əməyinə yüksək qiymətin təzahürüdür. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də, "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları isə, təsdiqləyib ki, ölkəmizdə mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır.

Dövlət başçısının 2009-cu il 3 aprel tarixli "Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Sərəncamı da, məhz konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından, mühüm əhəmiyyət kəsb edir.

Jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan vəsatin ayrılması da mətbuata yüksək diqqət və qayğının bariz təcəssümüdür. 2016-cı il iyulun 21-də dövlətimizin başçısı Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılması haqqında Sərəncam imzaladı. Sərəncama əsasən, Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna bir milyon manat ayrıldı. Prezident İlham Əliyevin həmin gün imzaladığı digər Sərəncama əsasən isə, Azərbaycan mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması üçün inşa olunan yaşayış binasının tikintisinin davam etdirilməsi məqsədilə 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna üç milyon manat ayrıldı. 2017-ci il iyulun 20-də isə Prezident İlham Əliyev jurnalistlər üçün tikilmiş ikinci binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak etdi, dövlətimizin başçısı, həmçinin, üçüncü binanın təməlini qoydu. Həmin gün Azərbaycan Prezidentinin Sərəncamı ilə üçüncü binanın tikintisi üçün 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 5 milyon manat ayrıldı. Dövlətimizin başçısının daha bir Sərəncamı ilə Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrıldı.



### " BÜTÖVLÜKDƏ, SÖZ AZADLIĞI HƏR BİR ÖLKƏ ÜÇÜN, ÖLKƏNİN İNKİŞAFI ÜÇÜN ƏN VACİB OLAN MƏSƏLƏLƏRDƏN BİRİDİR "

Bütün bunların nəticəsidir ki, Prezident İlham Əliyev 2017-ci ildə də "Jurnalistlərin dostu" mükafatına layiq görülüb.

Bütün bunlar göstərir ki, Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafı, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması hər zaman Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Bu Azərbaycan Prezidentinin kütləvi informasiya vasitələrinə, jurnalist əməyinə verdiyi yüksək qiymətin göstəricisidir. Bütün bunlar, həm də təsdiqləyir ki, Azərbaycan hakimiyyəti ölkədə söz və mətbuat azadlığının başlıca təminatçısıdır və bu sahədə həyata keçirilən islahatları demokratikləşmə prosesinin mühüm tərkib hissəsi kimi dəyərləndirir. "Bütövlükdə, söz azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir" deyən Cənab İlham Əliyev bu sahədə ölkəmizin çox böyük və uğurlu yol keçdiyini bildirib. Bunu təsdiqləyən kifayət qədər faktlar mövcuddur. Belə ki, bu gün Azərbaycanda yüzlərlə media orqanı fəaliyyət göstərir. Yüzlərlə qəzetin nəşri vasitəsilə dünyada gedən bütün proseslər sərbəst şəkildə diqqətə çatdırılır.

Göründüyü kimi, Azərbaycan dövləti azad söz, azad mətbuat problemlərini, tam mənada, həll etməyi qarşıya məqsəd qoyub və bu istiqamətdə zəruri addımlar atılır. Bu gün artıq mətbuatımızın 144-cü ildönümünü qeyd edirik. Mətbuat Günü təkcə jurnalistlərin yox, bütövlükdə, cəmiyyətimizin bayramıdır. Çünki azad söz azad cəmiyyətin təməl daşıdır. Böyük bir tarixi yol keçən milli mətbuatımızın xalqımızın həyatında çox böyük rolu var. Mətbuat demokratik prinsiplərin əhatə olunmasında ən başlıca vasitədir.

Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynayan Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir.

Prezident İlham Əliyev tərəfindən, bütün sahələrdə olduğu kimi, milli mətbuat da diqqətdə saxlanılır və həssaslıqla yanaşılır. Bütün bunlar Azərbaycan Prezidentinin kütləvi informasiya vasitələrinə, jurnalist peşəsinə və əməyinə verdiyi yüksək qiymətin göstəriciləridir.

Təbii ki, respublikamızın tarixi inkişafında əldə olunmuş yüksək səviyyə milli mediamız qarşısında da yeni vəzifələr qoyur. Bu gün belə diqqət və qayğı ilə əhatə olunan Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub- saxlanması və təbliğində mühüm rol oynayır. Azərbaycan jurnalistikası obyektivlik, qərəzsizlik və vətənpərvərlik prinsiplərinə əməl etməlidir. Mətbuat işçilərinə göstərilən diqqət jurnalistlərin üzərinə böyük məsuliyyət qoyur.

***Nəzakət ƏLƏDDİNQIZI***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

20 iyul 2019-cu il

# "Qadın və uşaq hüquqları media müstəvisində" mövzusunda konfrans keçirilib




***İyulun 19-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində Milli Mətbuat Gününə həsr olunmuş "Qadın və uşaq hüquqları media müstəvisində" mövzusunda konfrans keçirilib.***

AZƏRTAC xəbər verir ki, Dövlət Komitəsinin sədri Hicran Hüseynova milli mətbuatın yaranması münasibətilə jurnalistləri təbrik edib. O bildirib ki, mətbuat xalqa məxsusdur. Ona görə də mətbuatın yaranması günü təkcə jurnalistlərin yox, bütün xalqın bayramıdır. Azərbaycan milli mətbuatının yaranması görkəmli maarifçi, publisist və pedaqoq Həsən bəy Zərdabinin adı ilə bağlıdır. Müstəqilliyimiz bərpa olunandan sonra ulu öndər Heydər Əliyevin Sərəncamı ilə hər il iyulun 22-si milli mətbuatın yaranması günü kimi qeyd olunur.

Vurğulanıb ki, Azərbaycanda fikir, söz və məlumat azadlığının inkişaf etdirilməsi hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlidir. Digər sahələr olduğu kimi, bu istiqamət də Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. On il bundan öncə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması bunu bir daha sübut edir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı Bəhruz Həsənov deyib ki, 144 il bundan əvvəl "Əkinçi" qəzetinin nəşri ilə böyük hadisə baş verib. Böyük yazıçı və dramaturq Cəlil Məmmədquluzadə öz əsərlərində dünyanı qaranlıq təsvir edirdi. Bununla o, cəhaləti, xurafatı nəzərdə tuturdu. Bu dövrdə "Əkinçi" qəzetinin nəşr olunması sanki qaranlıqda yanan bir fənər oldu. Qısa zamanda bu fənərin işığı bütün Qafqazı, hətta türk dünyasını bürüdü. Bu qəzetin nəşri ilə nəinki Azərbaycan mətbuatı yarandı, ümumiyyətlə, Çar Rusiyasında, xüsusən Qafqazda və İslam dünyasında yeni bir mərhələnin başlanğıcı qoyuldu. Azərbaycanda Şərqdə ilk demokratik cümhuriyyətin qurulması, ilk opera və baletin yaranması, qadınlara səsvermə hüququnun verilməsi məhz "Əkinçi" qəzetinin başlatdığı cərəyan, maarifçi dalğası idi.

Bildirilib ki, Azərbaycan mətbuatını dörd dövrə bölmək olar - cümhuriyyətə qədər, cümhuriyyət dövrü, sovet və müstəqillik dövrləri. Hər dövrün özünəməxsus xüsusiyyətləri, inkişaf mərhələləri var. Azərbaycan mətbuatı müstəqillik dövründə özünün keyfiyyətcə yeni mərhələsinə qədəm qoydu. Bu da birbaşa Azərbaycan dövlətinin mətbuata göstərdiyi qayğı sayəsində mümkün oldu. 1998-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən senzura ləğv edildi ki, bu da Azərbaycan mediasının yeni bir müstəviyə qədəm qoymasına yol açdı. Ümummilli Liderin ölkəmizdə azad mətbuatın inkişafı sahəsində müəyyən etdiyi siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2017-ci ildə kütləvi informasiya vasitələri nümayəndələrinin sosial-iqtisadi rifah halının yaxşılaşdırılması üçün tikilmiş ikinci binanın istifadəyə verilməsi mərasimində Prezident İlham Əliyev çıxışında bir daha vurğuladı ki, jurnalistlər onun dostlarıdır.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov milli mətbuatımızın tarixindən danışaraq bildirib ki, Azərbaycan mətbuatı "Əkinçi" qəzetindən başlayaraq bu günədək milli-mənəvi dəyərlərin möhkəmlənməsində, Azərbaycan dilinin saflığının qorunmasında müstəsna rol oynayıb. O vurğulayıb ki, bu gün Azərbaycan ailə modeli dünyaya örnəkdir və bu reallıq mütləq mətbuat səhifələrinə çıxarılmalıdır.

Nazirlər Kabinetinin Aparatının Humanitar və sosial məsələlər şöbəsinin məsul əməkdaşı Abid Tahirli deyib ki, "Əkinçi" qəzeti yarananda Azərbaycan cəmiyyəti cəhalət, zülmət şəraitində idi. Həsən bəy Zərdabi "oyanmaq vaxtıdır, mədəniyyətə, maarifə, təhsilə yiyələnmək vaxtıdır" dedi. Onun səsinə, "Əkinçi"nin harayına ziyalılar səs verdilər. Bunun bəhrəsini qısa bir zamanda cəmiyyət gördü. Belə bir şəraitdə bu qəzet tarixin səhnəsinə çıxdı və yol göstərdi. Həmin yol uğurlu yol oldu.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli milli mətbuatımızın tarixi haqqında danışıb. O, müstəqilliyimizin bərpasından sonrakı dövrdə mətbuatın vəziyyətindən bəhs edərək deyib ki, 1991-ci ildə müstəqillik elan olunsa da, senzura hələ mövcud idi, söz azadlığı yox idi. Ulu öndər Heydər Əliyevin mətbuatda senzuranı ləğv etməsi ilə Azərbaycanda söz və mətbuat azadlığının əsası qoyuldu. 1995-ci ildə Konstitusiyamızda milli mətbuat azadlığı təsbit olundu. Mətbuatımızın inkişafına, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş siyasət bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl surətdə və daha geniş miqyasda davam etdirilir.

"Kaspi" qəzetinin təsisçisi Sona Vəliyeva bildirib ki, media dövlətin informasiya siyasətini həyata keçirir. Media həm də maarifləndirmə siyasətini həyata keçirməlidir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə söz və fikir azadlığı təmin olundu, geniş üfüqlər açıldı. Azərbaycan mediası bunu yüksək qiymətləndirdi və ulu öndər Heydər Əliyevi özünün dostu elan etdi. Bu siyasət bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilir və o da Azərbaycan jurnalistlərinin dostu elan olunub.

Bakı Dövlət Universitetinin kafedra müdiri Cahangir Məmmədli deyib ki, Azərbaycan xalqının inkişaf tarixində medianın özünəməxsus yeri var. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, medianın da inkişafı göz önündədir.

Avropa Şurasının Bakı ofisinin nümayəndəsi Pərvanə Bayramova Şuranın Azərbaycanda gender bərabərliyi və media azadlığı ilə bağlı həyata keçirdiyi layihələr haqqında danışıb. Sonda mediada ailə, qadın və uşaq məsələlərinin peşəkar işıqlandırılmasına görə, bu sahələrdə aparılan araşdırmalar və təhlillər üzrə 2019-cu ilin monitorinqinin nəticələrinə əsasən mükafatlandırılma mərasimi keçirilib.

# "Azərbaycanda hərbi cinayətlərin sayı azalıb"



Ötən il Silahlı Qüvvələrdə cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi istiqamətində görülən işlər səmərəli olub və qeydə alınmış cinayətlərin 99,6 faizi açılıb. AZƏRTAC xəbər verir ki, bunu iyulun 19-da Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev ilin birinci yarısının yekunlarına həsr olunmuş əməliyyat müşavirəsində deyib.

Hərbi prokuror vurğulayıb ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin birinci yarımilində qeydə alınmış xüsusilə ağır cinayətlər üç dəfə, qəsdən adam öldürmə cinayətləri 50 faiz, qəsdən sağlamlığa ağır zərər vurma cinayətləri 50 faiz, silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma cinayətləri 50 faiz, maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətləri 50 faiz, hakimiyyətdən sui-istifadə etmə cinayətləri 29,3 faiz, öz sağlamlığına zərər vurmaqla və ya sair üsulla hərbi xidmətdən boyun qaçırma cinayətləri 7,7 faiz azalıb.

Xüsusi qeyd olunub ki, artıq bir neçə ildir hərbi hissəni və ya xidmət yerini müharibə vaxtı və ya döyüş şəraitində özbaşına tərk etmə cinayət hadisəsi hesabat dövrlərində qeydə alınmayıb. Bu da Prezident, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrə göstərdiyi xüsusi diqqət və qayğının, bu sahədə onun rəhbərliyi ilə həyata keçirilən islahatların nəticəsində yaranmış ciddi nizam-intizamın, Silahlı Qüvvələrin ən müasir tələblərə cavab verən səviyyədə formalaşdırılmasının təcəssümüdür.

# "Grand Tourisme" qəzeti Şəki Xan Sarayından yazır

"Grand Tourisme" qəzetində Azərbaycanın Xan Sarayı və Şəkinin tarixi mərkəzinin UNESKO-nun Dünya İrs Siyahısına daxil edilməsinə dair məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə paytaxt Bakıdan 5 saatlıq məsafədə yerləşən Şəki şəhərinin tarixi mərkəzinin UNESKO-nun Bakıda keçirilən 43-cü sessiyası çərçivəsində adıçəkilən təşkilatın Dünya İrs Siyahısına daxil edildiyi nəzərə çatdırılır.


Grand Tourisme - Worldwide. Magazin des Global Village
Zeitschrift für Politische Kultur – mit Travellers Trends – Politik, Meinung, Mobilität, Wirtschaft

Startseite | Das ist GT | Mediadaten | GT - Shop | Datenschutz | AGB | Kontakt | Impressum | Suche

Startseite
Meinung - Debatte - Kolumnen
Seefahrt
Auto und Mobiles
Reise - Länder in GT
Luftfahrt und Fliegerei
Technik und Forschung
Medizin
Ernährung und Gesundheit
Kultur
Bücher
Wirtschaft
Besondere Immobilien
Politik
Gesellschaft
Umwelt, Klima, Zukunft
Kinder und junge Erwachsene
Messe und Event
Autoren in GT
Firmenseiten in GT
Future of Water - Global Trends - The new magazine in GT
RADIO in GT
Index - 18.000 Seiten, ca.

Sie sind hier: » Reise - Länder in GT » Aserbaidschan - Index

**UNESCO nimmt historisches Zentrum der aserbaidschanischen Stadt Sheki mit dem Kahnpalast in Weltkulturerbeliste auf**

GT RNG
10.07.2019

Baku - Das historische Zentrum der Stadt Sheki, rund 5 Stunden Autofahrt von Aserbaidschans Hauptstadt Baku entfernt, wurde am 30. Juni im Rahmen der 43. Sitzung des UNESCO- Komitees neben fünf anderen Kulturstätten in die Liste des UNESCO Weltkulturerbes aufgenommen.

Der in der historischen Altstadt Shekis gelegene Khanpalast erhielt bereits am 24. Oktober 2001 den Status eines besonders

Firmenseiten in GT
Werden Sie sichtbar, schalten Sie Ihre Firmenseite für 800.000 Leser im Monat. Ja, ich will mehr wissen!

Firmenseiten in GT
Erholung im Piemont: Die Casa Arzola
Erholung im Spreewald: Das Ferienhaus im dunklen Tann
GT spiegelt das MPC-Magazin
MPC MAGAZIN

Şəhərin tarixi hissəsində yerləşən və 24 oktyabr 2001-ci ildə UNESKO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin İlkin siyahısına daxil edilən Xan Sarayının şəhərin tarixi mərkəzi ilə birlikdə UNESKO-nun Dünya İrs Siyahısına salındığı qeyd olunur. Məqalədə Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmidin bu əlamətdar hadisə ilə əlaqədar olaraq məmnunluğunu ifadə edərək bunun Azərbaycanın özünəməxsus tarixi, mədəniyyəti və zəngin irsinin dünyada tanıdılmasına töhfə verdiyini, Şəkinin öz küçələri və arxitekturası ilə müasir Bakı şəhəri ilə kontrast təşkil etdiyini, Xan Sarayının Azərbaycanın ən qiymətli tarixi tikililərindən biri olduğunu və buradakı sənətkarların əl işlərinin bütün dünyadan gələn turistləri heyran qoyduğunu bildirdiyi vurğulanır. Qafqaz dağlarının ətəyində yerləşən, Qurcanaçay ilə iki yerə bölünən şəhərdə Xan Sarayı və Şəki xanının yay iqamətgahının yerləşdiyi diqqətə çatdırılır. Xanlıqlar dövrünün möhtəşəm arxitektor abidəsi hesab edilən Xan Sarayının 1762-ci ildə Şəki xanı Hüseyn Xan tərəfindən inşa etdirildiyi bildirilir. Şəhərin böyük ipək yolunun üzərindəki ticarət yolları şəbəkəsində xüsusi əhəmiyyət daşıyan yer olduğu, Azərbaycanın Şimal Qərb hissəsində yerləşən şəhərin XIX əsrdə ipək istehsalı üzrə beynəlxalq mərkəz rolunu oynadığı vurğulanır. Azərbaycan sənətkarlarının məşhur olduğu şəbəkə sənəti nümunələrinə bütün şəhərdə rast gəlindiyi və xüsusilə Xan Sarayında diqqəti cəlb etdiyi, Sarayın 5000 ağac və şüşə parçadan ibarət olduğu, rəngli şüşələrdən bəzədilmiş və ağacla haşiyələnmiş mozaikaların mismar və yapışdırıcı olmadan hazırlandığı nəzərə çatdırılır. Məqalənin sonunda UNESKO-nun bəşəriyyət üçün əvəzolunmaz əhəmiyyətə malik olan mədəni və təbiət abidələrinin müəyyən olunmasına, mühafizəsinə və qorunub saxlanılmasına çalışdığı, 2000-ci ildə Bakının İçəri Şəhəri və buradakı Şirvanşahlar Sarayının, 2007-ci ildə isə Azərbaycanın Qobustan Milli Tarix-Bədii Qoruğundakı qayaüstü rəsmlərin UNESKO-nun Dünya İrs Siyahısına daxil edildiyi qeyd olunur.

# Fransanın "Baby Boom" jurnalı Azərbaycanda uşaqlara göstərilən diqqətdən yazıb


BÉBÉS DU MONDE

BÉBÉ D'AZERBAÏDJAN
UN CADEAU DE DIEU

L'AZERBAÏDJAN EST À 95% MUSULMAN. NÉANMOINS C'EST UN PAYS LAÏC ET LA RELIGION RELÈVE DU DOMAINE PRIVÉ. LES FEMMES AZERBAÏDJANAISES MÊLENT CULTURE ORIENTALE, HÉRITAGE ÉDUCATIF DE L'UNION SOVIÉTIQUE ET OUVERTURE SUR LE MONDE. COMME DANS BEAUCOUP DE PAYS LA VENUE D'UN BÉBÉ EST UN MOMENT TRÈS IMPORTANT DANS LA VIE D'UNE FAMILLE. IL EST ATTENDU COMME UN CADEAU DE DIEU, QUELQUE SOIT SON SEXE.
Sylvie Heuliant.

LA PLACE DU PAPA
Même si le droit de vote des femmes date de 1918 avec la première république Azerbaïdjanaise, leur hiérarchie des priorités est en tout premier l'enfant, vient ensuite le mari, le travail quant à lui arrive en troisième position. Aysel, jeune maman de 21 ans a fait le choix, avec l'appui de son mari Qadim qui est employé dans un organisme de crédit, de ne pas travailler et d'élever son bébé. Ici c'est l'habitude que ce soit la maman qui s'occupe du bébé précise Aysel, le papa est uniquement là pour le cajoler. En Azerbaïdjan le mari n'assiste pas à l'accouchement de sa femme. Nous n'avons pas la tradition que nous avons vue à la télévision occidentale où le mari assiste la mère et le médecin dans la salle d'accouchement, moi j'étais seule nous dévoile Aysel. En Azerbaïdjan les hôpitaux sont gratuits mais Aysel a fait le choix de l'hôpital privé estimant avoir une meilleure prise en charge.

LA TRADITION DU GUYMAG
Après la naissance de notre fils Brahim qui a maintenant neuf mois, la famille a préparé à la maison un plat traditionnel appelé «guymag» à base de farine, de miel et de beurre et me l'a apporté à l'hôpital. C'est une coutume ici pour redonner des forces à la maman juste après son accouchement. C'est sucré, riche en calories, réconfortant et très nourrissant. Dans certaines familles, pour célébrer la naissance d'un nouveau venu, un mouton est sacrifié et distribué à sept familles pauvres. Un autre usage dans notre pays : les enfants ne sont pas allaités en public, l'allaitement est considéré comme une affaire privée.

LE MAUVAIS ŒIL
Il est d'usage à la naissance de ne pas jeter le cordon ombilical mais de l'enterrer. Les nouveau-nés ne sont présentés publiquement, en dehors de la famille proche, que 40 jours après leur naissance afin de ne pas attirer le mauvais œil. Personne ne veut risquer que l'enfant soit affecté par le «gyoz dayma» (mauvais œil) ou les mauvaises pensées que quelqu'un pourrait nourrir. Passé ce délai, les visites et les cadeaux pour le bébé peuvent alors commencer. En fait, la croyance dans le mauvais œil est assez répandue. Cela ne dépend pas du niveau d'éducation de la famille. Épingler un «œil bleu» sur les vêtements d'un enfant, surtout pour le premier né, est une pratique qui se fait encore chez certaines famille, cela donne aux parents le sentiment que leur enfant est plus en sécurité, qu'aucun danger inconnu et que personne ne peut lui faire du mal.

LA CÉRÉMONIE DU NOM
Après 40 jours, certaines personnes suivent la tradition de la «cérémonie du nom». Une fête est organisée à laquelle les femmes assistent pendant que les hommes se rendent dans un lieu séparé. Une femme âgée et très respectée est invitée à diriger la cérémonie. Après avoir récité des prières et lu des versets du Coran, le grand moment arrive lorsque

102 • BABYBOOM

Fransanın uşaqlar haqqında "Baby Boom" jurnalında "Azərbaycanda körpə - Allahın hədiyyəsi" adlı ölkəmizdə uşaqlarla bağlı adət-ənənədən bəhs olunan məqalə dərc olunub. Məqalədə, ilk növbədə, 95 faiz əhalisi müsəlman olan ölkəmizin dünyəvi olmasından, qadınlara 100 il əvvəl səsvermə hüququ verilməsindən danışılır. Azərbaycan ailəsində uşağın "Allahın hədiyyəsi" kimi səbirsizliklə gözlənildiyi diqqətə çatdırılıb. Ölkəmizdə ailədə atanın yeri, quymaq, göz dəymə, ad qoyma mərasimlərindən, eləcə də uşaqlarla bağlı adət-ənənədən söz açılıb.

# Nəsimi rayonunda jurnalistlərlə görüş keçirilib

**Dünən Nəsimi rayon icra hakimiyyətində Milli Mətbuatın 144 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu, TV, qəzet və elektron informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə tədbir-görüş keçirilmişdir. Görüşü giriş sözü ilə açan Nəsimi rayon icra hakimiyyətinin başçısı Asif Əsgərov qonaqları salamlayaraq bildirmişdir ki, 144 illiyini qeyd etdiyimiz Azərbaycan Milli Mətbuatı böyük və şərəfli inkişaf yolu keçmiş, bütün dövrlərdə qabaqcıl ideyaların carçısı olmuşdur.**




Mətbuatımız mütərəqqi ənənələri formalaşdıraraq, cəmiyyət qarşısında üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirmişdir. Ryon icra hakimiyyəti tərəfindən kütləvi informasiya vasitələri ilə sıx və məhsuldar əlaqələrə hər zaman mühüm əhəmiyyət verildiyini qeyd edən Asif Əsgərov vurğulamışdır ki, Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün mütərəqqi ideyalarını əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır. XX əsrin əvvəllərində mətbuat orqanları Azərbaycanda milli-azadlıq hərəkatının əsas istiqamətverici qüvvəsini təşkil etmiş, milli oyanış, milli özünüdərk proseslərinin aparıcı vasitələrindən biri olmuşlar. Sovet hakimiyyəti dövründə kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də, Azərbaycan mətbuatı milli varlığını qoruyub-saxlaya bilmiş, respublikanın ictimai-siyasi həyatında fəal rol oynamış, qəzet və jurnalların şəbəkəsi genişlənmiş, jurnalistikanın çeşidli növləri meydana çıxmışdır.






Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın ilk milli qəzeti olan "Əkinçi" qəzetinin birinci nömrəsinin çapdan çıxdığı gün - 22 iyul Azərbaycan Milli Mətbuat Günü elan edilmişdir. Müstəqilliyin əldə edilməsindən sonra informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirmişdir. Artıq Azərbaycan mətbuatı həm kəmiyyət, həm də keyfiyyət baxımından region ölkələrini qabaqlayır. Ölkəmizdə Mətbuat Şurası yaradılıb və "Mətbuat haqqında" Qanun qəbul edilmişdir. Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edilib. Bu Fərman kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verməklə yanaşı, onların rasionallığının artırılması sahəsində geniş Dövlət Proqramının əsas istiqamətlərini müəyyən edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu ilin martında imzaladığı Sərəncamla Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradılıb. Fondun yaradılmasında məqsəd Azərbaycanda fikir, söz və məlumat azadlığı şəraitini yaxşılaşdırmaq, o cümlədən, buna xidmət edən kütləvi informasiya vasitələrinə dövlət dəstəyidir.

Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli Milli Mətbuatın 144 illiyi ilə əlaqədar keçirilən tədbirlər, rəhbərlik etdiyi qurumun fəaliyyət göstərdiyi müddət ərzində, görülən işlər barədə məlumat vermiş, mətbuat işçilərinə göstərilən diqqət və qayğıya görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə mətbuat işçiləri adından minnətdarlığını bildirmişdir. Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov və mətbuat nümayəndələri çıxış edərək, milli mətbuatımızın zəngin və şərəfli yoluna nəzər salmış, Azərbaycan müstəqillik əldə etdikdən sonra mətbuat sahəsində əldə olunan uğurlardan danışmışlar.

Tədbirin sonunda Milli Mətbuat Günü münasibətilə KİV nümayəndələrinə Nəsimi rayon icra hakimiyyəti tərəfindən hədiyyələr təqdim olunmuşdur.

**Rəfiqə Kamalqızı**

# "Prezidentimiz mətbuat nümayəndələrini özünün dostu adlandırır"



"Mətbuat hər ölkənin dördüncü hakimiyyətidir. Bu fikir əbəs yerə səslənməyib. Bu gün heç bir ölkəni mediasız təsəvvür etmək olmaz. Bu peşə sahibindən peşəkarlıq, savad, dünyagörüş və ən əsası vətənpərvərlik tələb edir". SİA-nın məlumatına görə, bu fikirləri millət vəkili, professor Ağacan Abiyev deyib. O, əlavə edib ki, bu gün Azərbaycanda yüzlərlə mətbuat orqanı-qəzet və jurnal fəaliyyət göstərir: "Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Əkinçi" qəzetinin nəşrə başladığı gün-22 iyul Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunur. 144 illik yubiley münasibəti ilə işini sevən, peşəkar jurnalıstləri təbrik edirəm. Düzdür, jurnalist adı altında jurnalistika ilə heç əlaqəsi olmayan insanlar da məşğul olmağa başlayıb, lakin onlar mətbuatın adına sadəcə qara ləkədir: "Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabinin yolunu davam edən şərəfli jurnalistləri təbrik edir, Sizə çətin peşənizdə uğurlar arzu edirik: "Təsadüfən deyil ki, ölkəmizdə söz və mətbuat azadlığına, KİV-lərə ən yüksək səviyyədə diqqət və qayğı var. Cənab prezidentimiz İlham Əliyev mətbuat nümayəndələrini özünün dostu adlandırır. Bu ada layiq olan jurnalistlər çoxdur və bu jurlalistlərin sayəsində ölkəmizin tarixi, mədəniyyəti, idmanı və bütün sahələrdə olan inkişaf işıqlandırılır".

# DSX: Dənizdə batmaq təhlükəsi ilə üzləşən iki nəfər xilas edilib

İyulun 15-də saat 11:55 radələrində Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsinin "Vel" sahil nəzarəti bölməsinə 2 nəfər heyət üzvü olan "VE-396" bort nömrəli "Yamaha-48" tipli qayığın mühərrikində yaranmış nasazlıq səbəbindən dənizdə batmaq təhlükəsi ilə üzləşməsi barədə məlumat daxil olub.



DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, qayıqdakı şəxslərin xilas edilməsi məqsədilə dövlət sərhədinin mühafizəsində olan Sahil Mühafizəsinin "Tufan" tipli sərhəd gözətçi gəmisi hadisə baş vermiş koordinatlara istiqamət götürüb. Saat 12:10 radələrində Lənkəran rayonunun Vel kəndindən 2 mil məsafədə qayıq aşkarlanıb. Heyət üzvləri saat 12:35 radələrində xilas edilərək sahilə çıxarılıblar.

# Azad söz azad cəmiyyətin təməl daşıdır



*YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadənin yap.org.az-a müsahibəsi*

***- Vüqar müəllim, 144 yaşı tamam olan Azərbaycan mətbuatının dünəninə, bu gününə və gələcəkperspektivlərinə bir baxış keçirməyinizi istərdik...***

- Milli mətbuatımızın bünövrəsi 1875-ci il iyulun 22-də dövrünün maarifçilik hərəkatının görkəmli nümayəndələrindən olan Həsən bəy Zərdabinin “Əkinçi” qəzetinin ilk nömrəsinin nəşri ilə qoyuldu. “Əkinçi”nin fəaliyyəti üçün əsas seçdiyi prinsiplər - maarifləndirmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması ölkəmizdə milli demokratik mətbuatın gələcək inkişafı üçün təməl daşları rolunu oynadı. 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 nömrəsi işıq üzü görən “Əkinçi” cəmiyyətin güzgüsünə, Azərbaycan jurnalistikasının bayraqdarına çevrildi. Sonrakı illərdə görkəmli ziyalılar tərəfindən nəşr edilən “Ziya”, “Kəşkül”, “Şərqi-rus”, “İrşad”, “Molla Nəsrəddin” kimi qəzet və jurnallar “Əkinçi”nin ənənələrini davam etdirərək cəhalətə, haqsızlığa qarşı mübarizəni, maarifləndirməni əsas hədəfləri kimi irəli sürdülər.

Azərbaycan mətbuatının keçdiyi zəngin və şərəfli yolunu bir neçə mərhələyə bölmək olar. Cümhuriyyət tariximizi təhlil edərkən azad mətbuatın inkişafına, yeni fikrin formalaşmasına yaradılan şəraitə xüsusi diqqət yetirməliyik. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin əsas çağırışlarından biri məhz Cümhuriyyət tariximizin öyrənilməsi, həmin dövrdə bu və ya digər sahənin inkişafı üçün yaradılan möhkəm bazanın təbliği idi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə azad mətbuatın təməli qoyuldu. Ümumilikdə XX əsrin əvvəllərində nəşr edilən mətbuat orqanlar milli oyanış, milli özünüdərk proseslərinin aparıcı vasitələrindən biri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının təbliğində mətbuatın misilsiz xidmətləri vardır. Təəssüf ki, bu mərhələnin ömrü uzun olmadı. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da onun fəaliyyəti müddətində formalaşan baza Azərbaycanın öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra inkişafının davamlılığında, ölkəmizin bu və ya digər sahələrdə uğurlu addımlarında stimulverici amil rolunu oynadı.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonrakı dövrü əhatə edən mərhələnin 70 ili kommunizm ideologiyası dövrü ilə bağlıdır. Həmin illərdə fərqli düşünmək, yazmaq ümumiyyətlə, qadağan edilmişdi. 1969-1982-ci illərdə Azərbaycan mətbuatı yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu mərhələ həm də Azərbaycanın müstəqil gələcəyinə xidmət edən addımların atıldığı dövr kimi xarakterizə olunur. Ulu öndər Heydər Əliyevin hakimiyyətinin birinci dövründə mətbuatın cəmiyyətə təsir imkanlarının böyüklüyü yüksək dəyərləndirilərək, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlərə geniş yer verildi.

1991-ci ildə SSRİ-nin dağılması ilə öz dövlət müstəqilliyini yenidən əldə edən Azərbaycan ilk illərdə böyük faciələrlə, çətinliklərlə üzləşsə də, 1993-cü ildə xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizin müstəqillik tarixində, həmçinin cəmiyyətin güzgüsü kimi dəyərləndirilən mətbuatın inkişafında yeni bir mərhələnin əsasını qoydu. Müstəqilliyimizin ilk illərinin spesifik xüsusiyyətləri sırasına xaos, anarxiya və özbaşınalığın yaratdığı azad sözün, fikrin, mətbuatın hər addımda boğulması da daxil idi.

Ümummilli Liderin hakimiyyətə qayıdışı ilə yeni Azərbaycan quruldu, dövlətçiliyimizin əsasları yaradıldı. Demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunu tutan Azərbaycanın reallıqlarının təbliğatçısı, cəmiyyətin güzgüsü olan mətbuatın inkişafı istiqamətində davamlı addımlar atıldı. Ulu öndər Heydər Əliyevin 1998-ci il 6 avqust tarixli Fərmanı ilə senzura ləğv olundu. 1999-cu ildə mütərəqqi “Kütləvi informasiya vasitələri haqqında” Qanun qəbul edildi. 2001-ci il dekabrın 18-də ölkənin əsas kütləvi informasiya vasitələri və jurnalist təşkilatlarının rəhbərləri ilə görüşən Ümummilli Lider mətbuatın problemlərini müzakirə edərək həlli istiqamətində tapşırıqlarını verdi. Həmin görüşdən sonra bir çox problemlər operativ həllini tapdı, qəzetlər əlavə dəyər və mənfəət vergisindən azad edildi. Ümummilli lider Heydər Əliyev jurnalist əməyini yüksək dəyərləndirirdi: “Jurnalist əməyi qeyri-adi, olduqca böyük, zəhmətli, çox səylər göstərilməsini, hətta cəsurluq, hünər, fədakarlıq, öz peşəsinə vurğunluq tələb edən əməkdir.” Bir mühüm məqamı da qeyd edək ki, mətbuata dövlət nəzarətini həyata keçirən Mətbuat və İnformasiya Nazirliyinin ləğv edilməsi mətbuatın özünütənzimləməsi mexanizminin tətbiqinə şərait yaratdığından 2003-cü ilin martın 15-də Azərbaycan jurnalistlərinin I qurultayında media-ictimaiyyət, media-hakimiyyət münasibətlərini tənzimləyən qurum - Azərbaycan Mətbuat Şurası yaradıldı. Atılan hər bir addımın azad mətbuatın inkişafında öz rolu vardır. Ümumilikdə, Ümummilli Lider mətbuatın problemlərinin həlli ilə bağlı onlarla fərman və sərəncam imzalayıb. Dahi şəxsiyyətin mətbuata bu cür dost, səmimi münasibəti jurnalistlər tərəfindən də yüksək dəyərləndirildi. Ulu öndər Heydər Əliyev 2002-ci ildə “RUH” Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi tərəfindən “Jurnalistlərin dostu” mükafatına layiq görüldü.

Son 15 ildən artıq dövrdə ulu öndər Heydər Əliyev siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azad mətbuatın inkişafına xidmət edən addımlar davamlılığı ilə diqqət çəkir. Dövlətimizin başçısı İlham Əliyev bu çağırışı edir ki, hər bir ölkənin inkişaf səviyyəsi mətbuatın inkişaf səviyyəsi ilə sıx bağlıdır. Ölkəmizdə söz və mətbuat azadlığına, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə yüksək səviyyədə diqqət və qayğı göstərilir. Azərbaycanın iqtisadi imkanlarının artması digər sahələr kimi, azad mətbuatın inkişafı istiqamətində də mühüm addımların atılmasını şərtləndirdi. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası”nın təsdiq edilməsi, 2009-cu il aprelin 3-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun yaradılması azad medianı inkişaf etdirmək, mətbuatın maddi-texniki bazasını möhkəmləndirmək, jurnalist peşəkarlığını artırmaq, jurnalistlərin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədilə atılan mühüm addımlardandır. Milli mətbuatımızın yubileylərinin ölkədə geniş qeyd olunması, KİV-lərə birdəfəlik maddi yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, həmçinin milli mətbuatın inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi haqqında sərəncamlar da mətbuata göstərilən qayğının tərkib hissələridir. Hər beş ildən bir milli mətbuatımızın yubileyinin dövlət səviyyəsində təntənə ilə qeyd olunması artıq bir ənənəyə çevrilib. Dövlətimizin başçısı İlham Əliyevin Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında sərəncamları da böyük rəğbətlə qarşılanır. Mətbuat işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı ilk Sərəncam 2010-cu ildə imzalandı və Prezidentin Ehtiyat Fondundan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 5 milyon manat vəsait ayrıldı. Jurnalistlər üçün tikilən ilk bina 2013-cü ildə istifadəyə verildi və növbəti Sərəncam imzalandı. 2017-ci il iyulun 22-də Milli Mətbuat Günündə jurnalistlərin istifadəsinə verilən ikinci binanın açılışında iştirak edən dövlətimizin başçısı İlham Əliyev, eyni zamanda, üçüncü binanın təməlini qoydu. Atılan hər bir addım dövlətimizin azad mətbuatın inkişafına diqqət və qayğısının aydın mənzərəsini yaradır. 2017-ci ildə jurnalistlərin mənzil şəraitinin yaxşılaşdılması ilə bağlı Sərəncamın imzalanması ilə yanaşı, ölkəmizdə nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı da ayrıldı. Mətbu orqanlara maliyyə yardımlarının ayrılması ilə bağlı sərəncamlar artıq ənənə halını alıb. Bütün bunların nəticəsidir ki, son 15 ildən artıq dövrdə möhtərəm Prezidentimiz İlham Əliyev üç dəfə “Jurnalistlərin dostu” mükafatına layiq görülüb. Dövlətimizin başçısı, həmçinin “Kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin əsas məqsədi müstəqil, peşəkar, rəqabətədavamlı, eyni zamanda, milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl edən media resurslarının formalaşdırılmasıdır. Qlobal informasiya məkanının beynəlxalq ictimai rəyə təsirinin gücləndiyi müasir dövrdə mətbuatımız Azərbaycan xalqının maraqlarını daim müdafiə etməli, cəmiyyətimizin tərəqqisinə, dövlətimizin nüfuzunun daha da yüksəlməsinə öz töhfəsini əsirgəməməlidir” fikirləri ilə Azərbaycan mətbuatının qarşısında dayanan vəzifələri diqqətə çatdırır.

Keçilən yola qısa baxış fonunda Azərbaycan mətbuatının parlaq gələcəyini daha aydın görürük.

***- Jurnalist məsuliyyəti və peşəkarlığı bütün dövrlər üçün aktualdır. Sizcə, bu istiqamətdə əldə olunan nəticələr qənaətbəxşdirmi?***

- Əvvəldə də qeyd etdiyimiz kimi, azad medianın səviyyəsi hər bir ölkənin səviyyəsini göstərir. Əsas hədəflərimizdən biri inkişaf etmiş ölkələr sırasında addımlamaqdır. Məhz elə bu hədəfimizin özü digər sahələr kimi, mətbuatda da təkmilləşməni, yeniləşməni zərurətə çevirir. Nəzərə alsaq ki, bu gün 5 mindən artıq kütləvi informasiya vasitəsi dövlət qeydiyyatına alınıb, xeyli sayda jurnalist təşkilatları və ictimai birliklər fəaliyyət göstərir, internet istifadəçilərinin sayı əhalinin 85 faizindən çoxdur, bu statistikanın özü sağlam rəqabətin gücləndirilməsini, jurnalistin öz peşəkarlığını artırmasını, bundan öncə məsuliyyət amilini fəaliyyətinin əsas prinsipi kimi öndə saxlamasını bir tələb kimi ortaya qoyur. 2009-cu ildən fəaliyyət göstərən Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqələrin əsasında jurnalist peşəkarlığının artırılması əsas yer tutur. Jurnalistlərin peşəkarlığı, məsuliyyəti, dəqiq informasiyanın ötürülməsi və sair kimi məsələlər çox vacibdir. Bu vəhdət fonunda ərsəyə gələn hər hansı bir materialın ictimai fikrə təsir imkanları da geniş olacaqdır. Dövlətimizin başçısı İlham Əliyevin “Əgər biz keçmiş illərə nəzər salsaq görərik ki, son illərdə Azərbaycan jurnalistikası doğrudan da böyük yol keçmişdir. Bu, sadəcə xoş sözlər deyil, bu, həqiqətdir. Əgər 15 il bundan əvvəlki qəzetləri vərəqləsək görərik ki, orada daha çox böhtan, təhqir, iftira mövzuları üstünlük təşkil edirdi. Bəzi hallarda bu, bu gün də vardır. Ancaq onların miqdarı xeyli azalıbdır. Ona görə məsuliyyət və peşəkarlıq, dəqiq informasiya mütləq hər bir medianın imicini göstərir” fikirləri Azərbaycan mətbuatının keçdiyi inkişaf yolunda bu istiqamətdə də əldə etdiklərinin ümumiləşdirilmiş ifadəsidir. Peşəkarlıq və məsuliyyət hissinin birliyi fonunda ərsəyə gələn yazı həmin mətbu orqanın əqidəsinə, tutduğu yola, məqsəd və məramına işıq salmaqla yanaşı, jurnalistin mətbuatın prinsiplərinə hansı səviyyədə yanaşmasını da ortaya qoyur. Möhtərəm Prezidentimiz İlham Əliyevin 2010-cu ildə Mətbuat Şurasının yeni binasının açılışında söylədiyi bu çağırışı da xatırlatmaq istərdik: “Hesab edirəm ki, pe-

peşəkarlıq artdıqca, jurnalistikada bax, qeyd etdiyiniz, bu reket məsələləri də aradan qaldırılacaqdır. Ondan sonra bizim milli adət-ənənələrimizə xas olmayan başqa məqamlar da aradan qaldırılacaqdır. Təhqirlərə, böhtanlara, yalanlara son qoyulacaqdır. Mən hesab edirəm ki, bunun vaxtı çatıbdır." Günümüzün əsas tələblərindən olan informasiya təhlükəsizliyinin təmin edilməsi də jurnalist məsuliyyətini və peşəkarlığını aktuallaşdırır. Əqidəsindən, siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir mətbu orqan dövlətçilik maraqlarını öndə saxlamalı, vətənpərvərlik, milli şüur kimi prinsipləri əsas tutmalıdır.

***- Vüqar müəllim, çoxsaylı mətbu orqanlar sırasında özünəməxsusluğu şərtləndirən amilləri qeyd etdiniz. Bu günlərdə rəhbərlik etdiyiniz "İki sahil" qəzetinin 28 yaşı tamam oldu. Arxada qalan bu illər "İki sahil"ə hansı uğurları qazandırıb?***

- Ölkəmizdə demokratik cəmiyyətin varlığını təsdiqləyən əsas amillərdən biri məhz azad mətbuatın inkişafına geniş imkanların yaradılmasıdır ki, bunlardan biri də çoxlu sayda mətbu orqanların qeydiyyatdan keçməsi, hər birinin özünəməxsus yer tutmasıdır. "İki sahil"in bu gün çoxsaylı mətbu orqanlar arasında özünəməxsus yer tutmasında təbii ki, əqidəsinə, tutduğu yola sadiqliyi əsas rol oynayıb. 1991-ci ildən "Vahid Azərbaycan uğrunda" şüarı ilə yola çıxan "İki sahil" cəmiyyətin güzgüsü missiyasını şərəflə yerinə yetirir. Azərbaycanın müstəqillik tarixinin bələdçisi kimi ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycanın bu və ya digər sahələrdə qazandığı uğurları əsaslı şəkildə, mətbuatın əsas prinsipləri olan obyektivlik və qərəzsizlik əsasında ölkə ictimaiyyətinə çatdırır. Bu gün ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, milyonların sevgisini qazanan, ulu öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yol qəzetimizdə geniş təbliğ olunur. Bununla yanaşı, "İki sahil" ölkə iqtisadiyyatının inkişafına, ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının icrasına böyük töhfələr verən SOCAR-ın uğurlarının təbliğatçısıdır. İqtisadi tərəqqiyə əsaslanan güclü sosial siyasətimiz, milli-mənəvi dəyərlərimizin, tariximizin, mədəniyyətimizin, milli irsimizin qorunmasına xidmət edən addımlar və onların uğurlu nəticələri qəzetimizin hər sayında oxuculara çatdırılır. Oxucu auditoriyasının günbəgün genişlənməsi onların informasiya ehtiyaclarını yüksək səviyyədə təmin etməyimizdən, əvvəldə də qeyd etdiyim kimi, jurnalist peşəkarlığının və məsuliyyətinin artması fonunda qəzetimizin çoxsaylı mətbu orqanlar arasında özünəməxsus yer tutmasından irəli gəlir.

Ölkəmizdə azad mətbuatın inkişafına xidmət edən addımlar "İki sahil"in həyatında da özünü göstərir. Qəzetimizin fəaliyyəti daim yüksək dəyərləndirilib, əməkdaşlarımızın bir qismi "Əməkdar jurnalist" adına layiq görülüb, medallarla təltif olunublar. Jurnalistlərin mənzil şəraitlərinin yaxşılaşdırılması ilə bağlı imzalanan Sərəncama uyğun olaraq hədiyyə olunan evlərdən bizim əməkdaşlara da pay düşüb. Qeyd etdiyimiz kimi, "İki sahil" 28 ildə bu yolu dövlətçilik ənənələrimizin təbliği ruhunda qət edib və qarşıdakı illərdə də əqidəsinə sadiqliyi ilə həyata keçirilən uğurlu siyasətə öz töhfəsini verəcək.

***- Yeni texnologiyaların inkişafının informasiya təhlükəsizliyinin təminatında rolunu necə şərh edərdiniz? Dünya informasiya məkanına inteqrasiyada Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq səviyyəli tədbirlərin rolunu necə dəyərləndirirsiniz?***

- Müasir dövrün informasiya-kommunikasiya texnologiyaları əsri olduğunu nəzərə alsaq, daim ilklərə imza atan Azərbaycanın bu sahədə qazandığı uğurlar göz önündədir. İlk olaraq onu demək istərdim ki, Azərbaycan artıq kosmik klubun üzvüdür. Son 5 ildə üç peykimiz orbitə buraxılıb. Bu böyük uğurumuz iqtisadiyyatın şaxələndirilməsi, informasiya təhlükəsizliyinin təmin edilməsi, beynəlxalq kosmik məkana inteqrasiya istiqamətində mühüm addım kimi dəyərləndirilir. "Bu peyklərin çox böyük əhəmiyyəti var" söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, bu, ilk növbədə, Azərbaycanın informasiya təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu gün peyklərimiz vasitəsilə Azərbaycan telekanalları dünyaya öz verilişlərini təqdim edirlər.

Dünya informasiya məkanına sürətlə inteqrasiya edən Azərbaycan ev sahibliyi etdiyi beynəlxalq səviyyəli tədbirlər vasitəsilə malik olduğu imkanların təqdimatına nail olur. Təkcə Azərbaycanın Dünya Xəbər Agentliklərinin V Konqresinə, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasına və MDB Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının (İnformşura) XXII iclasına ev sahibliyi bu fikri böyük inamla qeyd etməyə əsas verir ki, ölkəmiz müstəqil medianın inkişafı sahəsində böyük təcrübəyə malikdir.

Azərbaycan demokratik inkişafın əsas göstəricilərindən olan KİV-lərin sayına görə MDB və Şərqi Avropa ölkələri arasında lider mövqedə dayanır. Azərbaycan internetin tam azad olduğu ölkədir və əhalimizin 85 faizindən çoxu fəal internet istifadəçisidir. 2019-cu ilin böyük uğurları sırasında yer alan 10 milyonluq ölkə sevincini nəzərə alsaq, Azərbaycanda sosial mediadan istifadə edənlərin sayının 2 milyondan çox olması təqdirolunan hadisədir. Bu rəqəm onu nümayiş etdirir ki, Azərbaycanda azad medianın inkişafı üçün mühüm addımlar atılıb. Ölkəmiz beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi etməklə həm malik olduğu imkanların təqdimatında əlavə imkanlar əldə edir, həm də təcrübə mübadiləsinin, səylərin birləşdirilməsi fonunda qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olur. Medianın rolunun günbəgün artması ilə məsuliyyətinin də artdığını önə çəkən dövlətimizin başçısı İlham Əliyev bildirir: " Bəzən mediada gördüklərimiz və oxuduqlarımız reallıqdan fərqlənir. Bunu şəxsi təcrübəmdən deyə bilərəm. Əlbəttə, istənilən dövlətin Prezidenti kifayət qədər dəqiq məlumat mənbələrinə malikdir. Ancaq beynəlxalq media vasitəsilə izlədiyimiz bu və ya digər eyni hadisə onun kim tərəfindən təqdim edilməsindən asılı olaraq, bəzən fərqli şəkildə çatdırılır. Bu səbəbdən biz eyni hadisənin siyasi motivlərə əsaslanan fərqli təqdimatının şahidi oluruq. Yaxın Şərq, müharibələr, Avropa, postsovet məkanı - burada eyni hadisə fərqli şəkildə təqdim edilir. Yəni, biz burada siyasi motivlər və müəyyən mənada müxtəlif siyasi dairələrin müdaxiləsinin şahidi oluruq. Hadisələrin gedişi müəyyən çərçivəyə salınır, təqdim edilməli olan məsələlər müəyyənləşdirilir, digər mövzular isə qadağan edilir." Ölkə Prezidenti beynəlxalq tədbirlərin bu kimi məsələlərin həllinə böyük dəstək olduğunu bildirir.

***- Hər dövrün öz çağırışları vardır. Müharibə şəraitində yaşayan ölkəmizdə ictimaiyyətin yazılı və elektron KİV-lərdən gözləntiləri fərqlidir. Əsas məsələ vətənpərvərlik hissinin aşılanması, həqiqətlərimizin faktlar əsasında təbliğ olunmasıdır. Mətbuat bu vəzifəni hansı səviyyədə yerinə yetirir?***

- XXI əsr informasiya mübarizəsi əsridir. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, internet resurslarının mövcudluğu bu mübarizəni daha da kəskinləşdirir. Müxtəlif dillərdə internet resurslarının yaradılmasının vacibliyi bildirilir.

Möhtərəm Prezidentimizin hər çıxışında Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinin gündəlik işimiz olması ən mühüm çağırış kimi səsləndirilir. Ümummilli məsələlərdə birlik, həmrəylik vacibdir. Siyasi əqidəsindən, mövqeyindən asılı olmayaraq bütün mətbu orqanlar, media nümayəndələri yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsil mahiyyətinin açıqlanmasına öz töhfələrini verməlidir. Azərbaycanın diplomatik uğurları, eyni zamanda, iqtisadi imkanlarının artması fonunda güclənən, qüdrətlənən ordusu bu problemimizin də tezliklə öz ədalətli həllini tapacağına əminlik yaradır. Aprel döyüşləri, Naxçıvan qələbələri Azərbaycan Ordusunun gücünün nümayişi oldu. Həmçinin Cocuq Mərcanlı kəndinə qayıdış Böyük Qayıdışın başlanğıcı kimi dəyərləndirilir. Cənab Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın üçrəngli bayrağının Şuşada, Xankəndidə dalğalanacağı gün uzaqda deyil.

Dövlətçilik maraqları şəxsi maraqlardan öndə dayanmalıdır. Bu gün Azərbaycanın uğurları xarici antiazərbaycan dairələr tərəfindən böyük qısqanclıq hissi ilə qarşılandığından onların əsassız, heç bir məntiqə söykənməyən qarayaxma kampaniyaları həyata keçirmələrinə səbəb olur. Əqidəsindən, siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir mətbu orqan bu kimi çirkin kampaniyalara qarşı mübarizədə fəal olmalı, Azərbaycanı istəməyən bu ünsürlərin şər və böhtanlarını reallıqlarımıza söykənərək əsaslı şəkildə cavablandırmalıdırlar.

Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, hücum diplomatiyasını daha da gücləndirməliyik. Bu gün Azərbaycana hansı sahədən baxsaq böyük inkişafın, tərəqqinin şahidi olarıq. İqtisadi imkanlarını günbəgün artıran ölkəmizin ordu quruculuğu sahəsində əldə etdiyi uğurlar göz önündədir. Dövlətimizin diplomatik uğurlarını, ordumuzun gücünü, qüdrətini təbliğ etməklə yanaşı, bu gün heç bir sahədə Azərbaycanla rəqabət aparmaq imkanında olmayan Ermənistanın işğalçılıq siyasətinin ona qazandırdığı uğursuzluqları da beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmalıyıq. Saxta tarix yazıb, qonşu dövlətlərə qarşı əsassız torpaq iddiası ilə yaşayan və bu istəyini zaman-zaman həyata keçirmək üçün havadarlarından dəstək alan ermənilərin iç üzü açılmalıdır. Diplomatik uğurlarımızın miqyası genişdir. Dövlətimizin uğurlu daxili və xarici siyasəti nəticəsində artıq dünya ictimaiyyəti Azərbaycan reallıqlarını düzgün dəyərləndirməyə başlayıb. Ayrı-ayrı nüfuzlu dünya dövlətlərinin və beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələrdə Azərbaycanın haqlı mövqeyi dəstəklənir. Təbii ki, bu uğurlar Heydər Əliyev siyasətinin təntənəsidir. Bu reallıqların təbliğində mətbuatın üzərinə böyük məsuliyyət düşür. Hər bir mətbu orqan vətənpərvərlik hissinin möhkəmləndirilməsinə, həqiqətlərimizin təbliğinə öz töhfəsini verməlidir. Bu, həm bir mətbu orqan olaraq vəzifəmiz, həm də vətəndaşlıq borcumuzdur.

Bugünkü uğurlarımız xalqımızın yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə öz ədalətli həllini tapacağına əminliyini artırır. Mətbuatın növbəti 145 illiyində qələbə sevincimizi paylaşmaq arzusu ilə bütün həmkarlarımı qarşıdan gələn 22 iyul-Milli Mətbuat Günü münasibətilə təbrik edir, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

# DSX narkotik qaçaqmalçılığı ilə mübarizəni davam etdirir



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində uğurlu əməliyyat-axtarış tədbirləri davam etdirilir. SİA-nın verdiyi məlumata görə, 05 iyul 2019-cu il tarixdə "Xaş-xaş 2019" şərti ad altında keçirilmiş kompleks tədbirlər nəticəsində Lerik rayonunun Kömürköy ərazisində 15 hektar sahədən ümumi çəkisi 2 ton 680 kq olan xaş-xaş kolu, Ağstafa rayonu Qarayazı ərazisindən isə 1 hektar sahədən 2 ton 376 kq olan çətənə kolları aşkar olunaraq Daxili İşlər Nazirliyinin yerli rayon şöbələrinin və icra nümayəndələrinin iştirakı ilə yığılaraq müvafiq qaydada yandırılma yolu ilə məhv edilib.

Qeyd edilib ki, 05 iyul 2019-cu il tarixdə Yardımlı rayonu Arvana kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində İrandan Azərbaycan Respublikası istiqamətində qaçaqmalçılar tərəfindən dövlət sərhədindən narkotik vasitələrin keçirilməsinin qarşısı alınıb. Nəticədə sərhəd pozucuları polietilen paketdə qablaşdırılmış 935 qram marixuana və 1025 qram heroini hadisə yerində ataraq geri İran ərazisinə qaçıblar.

08 iyul 2019-cu il tarixdə "Astara" sərhəd nəzarəti məntəqəsində, İrandan Azərbaycan Respublikasına gələn İİR vətəndaşları 1994-cü il təvəllüdlü Davamihur Peiman Xeirollah oğlu, 1987-ci il təvəllüdlü Abarimejdar Hossein Ayatali oğlu və 1986-cı il təvəllüdlü Hemmati Mejdar Reza Nabiali oğlunun üzərinə sərhəd və gömrük baxış keçirilərkən, üstlərindən və daxili orqanlarından ümumilikdə 111 qram heroin, 10 qram metafitamin, psixotrop dərman olan 10 həb "Metadon", 10 həb "Tramadol" aşkar olunaraq götürülüb.

15 iyul 2019-cu il tarixdə "Astara" sərhəd nəzarəti məntəqəsində, İrandan Azərbaycan Respublikasına keçərkən Lənkəran rayon sakinləri 1992-ci il təvəllüdlü Səfərli Məhəmməd Mahir oğlunun və 1989-cu il təvəllüdlü Ağabalayev Elxan Bəşir oğlunun üzərinə baxış keçirilərkən, onlardan birinin üstündən 6 qram, digərinin üstündən 7 qram narkotik vasitə olan heroin aşkar olunub. Hər üç fakt üzrə Dövlət Sərhəd Xidməti tərəfindən əməliyyat istintaq tədbirləri davam etdirilir.

# Ermənistan əngəllər burulğanında

## Paruyr Hayrikyan: “Nikol Paşinyan, sən belə qərarları özbaşına verə bilməzsən, Azərbaycanla hər şeyi razılaşdırmalısan”

***Gözlənilməz qərar- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların Madrid prinsipi əsasında həll olunması ilə bağlı ATƏT-in Minsk Qrupunun verdiyi son bəyanatı Ermənistan ictimai-siyasi rəyini ciddi şəkildə təlaşlandırdı. Belə ki, bu təlaş erməni mediasında verilən narahatlıqlarla dolu açıqlama və rəylərdən də görünməkdədir.***

“Ermənistanda xarici siyasət üzrə dəqiq strategiya olmayıb və indi də yoxdur”. Ermənistanın “Milli müqəddəratını təyinetmə” Birliyinin lideri Paruyr Hayrikyan jurnalistlərlə söhbətində bildirib ki, yeni hökumət də əvvəlkilərdən heç də fərqlənmir. “Ermənistanda hakimiyyət dəyişikliyi baş verərkən və bu, eyni zamanda, inqilab adlandırılarkən, yeni hakimiyyətin bu vaxta qədər ölkədə yürüdülmüş siyasəti dəyişəcəyini, yenidən nəzərdən keçirəcəyini düşünürdüm” deyə bildirən erməni siyasətçi əlavə edib: “ Hazırkı dövrdə də ölkənin müstəqillik və təhlükəsizlik təməlləri möhkəm özüllər üzərində dayanmayıb”.

P.Hayrikyan, onu da vurğulayıb ki, bəyanatda elə bir maddə var ki, bilavasitə bizim mövcud hakimiyyətimizin təşəbbüsünə ünvanlanıb. : “Əgər bu bəyanat kiminsə narahat etməliydisə, bu, yalnız fəaliyyətdə olan hakimiyyəti deyil, digərlərini də narahat etməliydi. Hər şeyin tərs getdiyi zaman hər kəs narahatdır, yalnız hakimiyyət rahatdır, ancaq hakimiyyət narahat olmalıdır. Ona görə narahat olmalıdırlar ki, bu bəyanatda elə bir maddə var ki, bilavasitə bizim mövcud hakimiyyətimizin təşəbbüsünə ünvanlanıb”.



### “Nikol Paşinyan, sən belə qərarları özbaşına verə bilməzsən, Azərbaycanla hər şeyi razılaşdırmalısan”

P.Hayrikyan, onu da vurğulayıb ki, bu məsələ narahat olmaq üçün vasitədir: “Belə bir bəyanatın verilməsi o deməkdir ki, “Nikol Paşinyan, sən belə qərarları özbaşına verə bilməzsən. Sən Azərbaycanla hər şeyi razılaşdırmalısan”. Bu məsələ, həqiqətən də, narahat olmaq üçün vasitədir”.

Göründüyü kimi, bütün bu kimi münasibətlər isə, bir reallığı göstərir. İşğalçı Ermənistanın hakim dairələri ya sağlam qərar verərək, öz vəziyyətini daha da pisləşdirməməli, ya da lüzumsuz dirəniş göstərdikcə, məhvə doğru sürükləncəyini anlamalıdır. Daha dəqiq desək, istər beynəlxalq Konvensiyalar və qanunlar, istərsə də Azərbaycanın hərbi gücü qarşısında tab gətirə bilməyəcəyini dərk etməlidir.

### Yenə də erməni xalqı Nikol Paşinyanın uğursuz cəhdinin əzabını çəkəcək

Həqiqətən də, belədir. Baş verənlər də, bunu bir daha sübut edir. Bu dəfə isə, “küçə demokratı” dövlət siyasətindən xəbərsiz olan Nikol Paşinyanın uğursuz cəhdinin əzabını çəkəcək və çəkir də. Xüsusilə də, 2019-cu il işğalçı ölkəyə bahalaşma ilə girdi. Bu da, səbəbsiz deyildi. Belə bir atalar sözü var: keçinin buynuzu qaşınanda, çobanın çomağına sürtər. Ermənistanda bu, baş verməli idi. Səbəb isə, Moskvanın siyasi təzyiq vasitələrindən getməsidir. Belə ki, il sonu Rusiya prezidenti Vladimir Putinin Ermənistanın baş naziri Nikol Paşinyana bir çox xəbərdarlıq ismarışları və mesajları verməsi nəticədə, bu çətinlik baş verməli idi. Rusiyanın satdığı təbii qazın qiymətinin dəyişməməsi, Paşinyanın Moskvaya uğursuz səfərləri, daha doğrusu, əli ətəyindən uzun gələn Nikolun arzularının çilik-çilik olmasını bir daha sübut edir.

Beləliklə, bütün bu faktlar, onu göstərir ki, Ermənistanın iqtisadi sahədə heç bir manevr imkanları yoxdur. Avropa İttifaqının Ermənistana ayırdığı milyonlarla vəsait Rusiyadan alınan qaza sərf edilərsə, Paşinyanın sosial islahatlar üçün ümid etdiyi maliyyənin səmərəliliyi olmayacaq. Nəticədə, xalq yenidən ağır sosial tələblərlə etiraz aksiyalarına çıxacaq. Baş verən proseslər göstərir ki, Paşinyanın islahatlar vədləri heç bir real əsaslara malik deyil.

Doğrudur, Qərb, Paşinyana maliyyə və siyasi dəstək naminə, Rusiyanın orbitindən çıxması üçün vədlər verir. Kreml isə, çalışır ki, Paşinyanın qərbpərəst siyasətinin qarşısını alsın. Bununla belə, Ermənistanda siyasi-iqtisadi vəziyyət gərgin olaraq qalır. Ümumiyyətlə, bu ölkədə əsaslı islahatlar mümkün deyil. İlk növbədə, bu ölkə işğalçı siyasətinə görə blokadadadır və Rusiyanın forpostudur. Bu baxımdan, Yeravanın Moskvaya qarşı demarşı, ona baha başa gələ bilər.

Politoloqların sözlərinə görə, Paşinyanın oyuncaq bir lider olmasını, artıq dünya ölkələri və ən əsası, Rusiya yaxşı bilir. Politoloq Ramiz Alıyev bildirir ki, illər ərzində Ermənistana başçılıq edənlər arasında ilk hökumət başçısı idi ki, bu cür qarşılanıb, yola salınırdı: “Bu da, ondan irəli gəlir ki, Paşinyan Qərbin hakimiyyətə gətirdiyi oyuncaq bir hökumət başçısıdır, bunu bütün dünya ölkələri və Ermənistan xalqı da bilir. Yəqin ki, bir neçə il ərzində, Paşinyan öz postundan ya istefa verəcək, ya da xalq onu yola salacaq”.

Bir sözlə, Paşinyanın bu açıqlaması özünə qarşı edilən hörmətsizliyin etirafı olmaqla yanaşı, özü-özünü əngələ saldı. Göründüyü kimi, belə nəticələr, onu göstərir ki, erməni ictimaiyyəti Nikol Paşinyan hakimiyyətinin boş vədlərindən və “inqilab” eyforiyasından bezib. Belə bezmələr isə, Ermənistanın növbəti inqilaba hamilə qalmasını da reallaşdıra bilər. Hər halda, bu ölkədəki böhranlar və çıxış yollarının tapılmaması bu cür qənaətə gəlməyə kifayət qədər rəvac verir.

**A.SƏMƏDOVA**

# Bakı Metropoliteni Avropa Gənclər Yay Olimpiya Festivalına tam hazırdır

İyulun 20-dən 28-dək Bakıda keçiriləcək XV Avropa Gənclər Yay Olimpiya Festivalına hazırlıq məqsədilə yarışların təşkilat komitəsi ilə müntəzəm əlaqəli fəaliyyət göstərən “Bakı Metropoliteni” QSC-də bununla bağlı bütün müvafiq tədbirlər görülüb.

QSC-dən AZƏRTAC-a bildirilib ki, şəhərimizdə keçirilən sosial-mədəni kütləvi tədbirlər zamanı Bakı Metropoliteninin nəzərdə tutulmuş əməliyyat planı yarışların əhatə dairəsi, keçiriləcəyi məkanlar, həmçinin qonaqların hərəkət edəcəyi əsas istiqamətlər nəzərə alınmaqla tərtib olunaraq qatarların hərəkətinin təşkili və sərnişin axınının tənzimlənməsinə cavabdeh olan bütün sahələrə müvafiq tapşırıqlar verilib.

Ümumən sərnişinlərin təhlükəsizliyi və rahatlığı məqsədilə metropoliten stansiyaları və elektrik deposu gücləndirilmiş iş rejimi şəraitində fəaliyyət göstərəcək. Bu xüsusda əlavə işçi qüvvəsinin və texniki vasitələrin, o cümlədən zərurət yaranacağı təqdirdə xəttə buraxılmaq üçün ehtiyat qatarların ayrılması nəzərdə tutulub. Yarışların sıx keçiriləcəyi məkanlara yaxın, şəhərin mərkəzi hissəsində yerləşən, həmçinin əsas sərnişin axını gözlənilən stansiyalarda növbətçilik cədvəlləri tərtib olunmaqla əlavə işçi personalın ayrılması planlaşdırılıb. Yarışlar zamanı kütləviliyi ilə seçilən tədbirlər - açılış və bağlanış mərasimləri zamanı yerüstü ictimai sərnişindaşıma nəqliyyatı ilə sıx inteqrasiya olunmuş fəaliyyət planı da işlənilərək hazırlanıb.

# Bu gündən paytaxtın bəzi küçə və prospektlərində sarı zolaq qadağası qüvvəyə minəcək

İyulun 20-dən “EYOF Baku 2019” XV Avropa Gənclərinin Yay Olimpiya Festivalının Bakıda keçirilməsi ilə əlaqədar paytaxtın bəzi küçə və prospektlərində sarı zolaq qadağası qüvvəyə minəcək.




Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov AZƏRTAC-a bildirib ki, festivalın keçirildiyi müddətdə yol polisi gücləndirilmiş iş rejimində xidmət etməklə, yarışların təşkil olunduğu ərazilərdə nəzarəti artıracaq. Təhlükəsizlik tədbirlərinin görülməsi məqsədilə tədbirlərin keçirildiyi ərazilər və onlara bitişik bütün küçə və yollar, prospektlər yol polisi tərəfindən nəzarətə götürüləcək. Tədbirlərin keçirildiyi ərazilər istiqamətində yarış iştirakçılarının rahat, fasiləsiz və təhlükəsiz hərəkətinin təşkil edilməsi məqsədilə sarı rəngli xüsusi işarələnmiş, Olimpiya zolağı kimi tanınan avtomobil zolağı ilə hərəkətə quraşdırılmış kameraların köməyi ilə nəzarət ediləcək. Məlumat üçün bildiririk ki, bu zolaqların çəkildiyi ərazilərdə hərəkət qadağandır yol nişanı da quraşdırılıb. Sürücülər bundan xəbərdardırlar.

# ATƏT-in yeni qətnaməsi: ərazi bütövlüyünə və beynəlxalq hüquqa hörmətin ifadəsi

***Məlumdur ki, dünyanın müxtəlif bölgələrində etnoslararası və lokal münaqişələrin həlli qlobal geosiyasət üçün aktual olaraq qalır. O cümlədən Cənubi Qafqazdakı münaqişələrin ədalətli və sülh yolu ilə həlli məsələsi bütün ciddiliyi ilə qarşıda dayanır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması ilə məşğul olan ATƏT-in Minsk qrupu isə kifayət qədər səmərəli fəaliyyət göstərmir. Beynəlxalq təşkilatlarda məsələ ilə bağlı qəbul edilən sənədlərdə bir sıra hallarda vəziyyət doğru əks etdirilmir. Bu baxımdan Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (ATƏT PA) Lüksemburqda keçirilən illik sessiyasında münaqişələrlə bağlı qəbul edilən sənədin məzmunu böyük maraq doğurur. Sənəddə əhəmiyyətli fikirlər yer alıb. Onlara ermənilərin reaksiyası qeyri-adekvat olub. Çünki həmin fikirlərdə həqiqət ifadə edilib. Bu kontekstdə qəbul edilən sənədin müddəalarının geosiyasi analizinə ehtiyac görürük.***




## Dayanıqlı inkişaf naminə: ərazi bütövlüyü bərpa edilməlidir

Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsi ATƏT üçün aktual məsələ olaraq qalır. Təşkilatın Parlament Assambleyasının 28-ci illik sessiyası çərçivəsində bu məsələ ilə bağlı məruzə edilib. Məruzə siyasi və təhlükəsizlik məsələləri üzrə komissiyada dinlənilib. “Təhlükəsizliyin təmin olunması üçün dayanıqlı inkişafın gücləndirilməsi: parlamentlərin rolu” mövzusunda hazırlanan məruzədə regional münaqişələrə də yer verilib.

Konkret olaraq, Abxaziya, Cənubi Osetiya, Donbas, Krım, Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş 7 rayonundakı vəziyyətlə bağlı məruzə edilib. Hazırlanan qətnamənin 10-cu bəndində bununla bağlı yazılır ki, münaqişə edən tərəflər arasında konstruktiv dialoqun olması üçün dayanıqlı inkişafın yoxluğundan dərin narahatlıq vardır. O cümlədən Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və əlavə olaraq işğal olunmuş 7 rayonu ətrafında yaranmış vəziyyət ciddi narahatlıq doğurur.

Belə görünür ki, ATƏT PA Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli üçün vacib olan davamlı dialoqun olmadığını qəbul edir. Bu, prinsipial mövqedir. Çünki həmsədrlər də daxil olmaqla bir sıra dairələr bunun əksini iddia etməyə çalışırlar. Onlar hesab edirlər ki, danışıqlar prosesi normal gedir. Azərbaycan tərəfi isə dəfələrlə bildirib ki, rəsmi İrəvan danışıqları dalana dirəmək üçün süni manevrlər yaradır. Bu proses son zamanlar yeni dinamika alıb. Ermənilər Dağlıq Qarabağdakı separatçı-terrorçuların da danışıqlar prosesinə daxil edilməsi kimi absurd şərt irəli sürməyə çalışırlar. Onlara bununla bağlı rədd cavabı verilib. Lakin rəsmi İrəvan yenə də qeyri-konstruktiv mövqeyində qalmaqdadır. ATƏT-in Parlament Assambleyasının bu sənədi həmin səbəbdən ermənilərı tələşa salıb.

Bundan başqa, sənədin 19-cu bəndində daha konkret münasibət yer alıb. Orada Gürcüstan, Ukrayna və Moldova ilə yanaşı, Azərbaycanın da ərazi bütövlüyünə hörmətin olmasına çağırış vardır. Konkret olaraq, ATƏT xəbərdarlıq edir: münaqişə ancaq Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi şərti ilə həll edilə bilər. Onu deyək ki, sənədə etiraz etməyə çalışan erməni deputatlar və onların qulbeçələri onun qəbuluna qarşı heç bir təsir göstərə bilməyiblər. Bu da Azərbaycan rəhbərliyinin apardığı siyasətə olan inamın daha da yüksəldiyini və beynəlxalq təşkilatların həqiqəti getdikcə daha dolğun etiraf etməyə başladıqlarını göstərir.

Artıq ermənilərin bütün bəhanələrinin limiti tükənib. Onlar cəfəng fikirlərlə kimsəni inandıra bilmirlər. Artıq avropalılar da eyni qondarma tezisləri dinləməkdən tam beziblər. Bu səbəbdəndir ki, erməni tərəfi heç bir ciddi etiraz edə bilmir. O, ancaq sözdə nələrisə deyir və bununla da susur. Həmin aspektdə ermənilərin son qətnaməyə münasibəti maraqlı olub. Onlar gülünc bir iddia ortaya atıblar. Guya ATƏT Parlament Assambleyasının sənədi Bakıda hazırlanıb və Azərbaycanın pulu hesabına qəbul edilib (bax: “Aravot”: “Gto ne rezolöüiə, a kuplenny Azerbaydjanom dokument” - David Babaən o postavlennoy na qolosovanie v OBSE rezolöüii, kasaöheysə Karabaxskoqo voprosa / Tert.am, 6 iyul 2019).

## Gülünc erməni iradları: ədalətli həllin bir addımlığında

Bu, o qədər gülünc, əsassız və səviyyəsiz iraddır ki, normal insanların dinləməsi belə əziyyətdir. Ancaq, digər tərəfdən, məhz belə bir primitiv və böhtançı iddia göstərir ki, ermənilərin işğalı gizlətmək və ona haqq qazandırmaq üçün heç bir ciddi arqumentləri yoxdur. Onların informasiya sahəsində də manevrlər etməyə imkanları çox məhdudlaşıb.

Ermənilərin gülünc və ziddiyyətli bir halda olduqlarını elə erməni KİV-lərində dərc edilən bir informasiya da təsdiq edir. Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk İrəvanda baş nazir Nikol Paşinyanla görüşəndən sonra bəyan edib ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlarda sabit vəziyyət yoxdur. Həm atəşkəs pozulur, həm də danışıqlarda real nəticələr gözə çarpmır. D.Tusk deyib: “Hər iki tərəf təmkin nümayiş etdirməli və real danışıqlara və sülhə fayda verəcək mühitin yaradılmasına kömək edən qərarlar qəbul etməlidirlər” (bax: Karabaxskiy konflikt ne imeet voennoqo reşeniə, zdesğ neobxodimo politiçeskoe reşenie, kotoroe budet sootvetstvovatğ mejdunarodnomu pravu i prinüipam - Donalğd Tusk / Tert.am, 6 iyul 2019) Bu, ATƏT-in qətnaməsinin 10-cu bəndinə tam uyğun bir fikirdir.

D.Tusk sözlərinə davam edərək vurğulayıb: “Münaqişənin hərbi həlli yoxdur və burada beynəlxalq hüquqa və prinsiplərə uyğun olan siyasi qərar zəruridir” (bax: əvvəlki mənbəyə). Bunun ardınca Aİ Şurasının Prezidenti ATƏT-in Minsk qrupunun baza prinsiplərə, yəni hüquqi aktlara əsaslanan ədalətli, uzunmüddətli həll səylərini dəstəkləyir. Hamı bilir ki, hüquqi baza prinsipləri dedikdə, konkret olaraq, Helsinki Yekun Aktı, Madrid prinsipləri kimi sənədlərdə ifadə olunan müddəalar nəzərdə tutulur. Onlarda münaqişənin həllinin hüquqi əsası mövcuddur. Ermənistan rəhbərliyi isə məhz Madrid prinsiplərini qəbul etmək istəmir.

Beləliklə, D.Tusk yuxarıda vurğulanan sənədin 19-cu bəndini də tam təsdiq edib. Deməli, ATƏT PA-nın vurğulanan qətnaməsi Aİ-nin qəbul etdiyi ciddi hüquqi prinsipləri nəzərə alaraq hazırlanıb. Bu, hansısa deputatın öz fikrinin və ya mövqeyinin ifadəsi deyil. Bütövlükdə ATƏT-in gözlədiyi hüquqi çərçivədə və prinsiplər kontekstində hazırlanmış sənəddir. Belə bir sənədi pulla almaq hansı anlamı verir?

Yəni məsələ ATƏT-in özünün qəbul etdiyi prinsiplərin tam gözlənməsi ilə hazırlanıbsa, Azərbaycan kimə nə verə bilər? Ümumiyyətlə, Azərbaycanın belə bir addıma ehtiyacı yoxdur. Ancaq yuxarıda D.Tuskun dedikləri ilə qəbul edilən sənədin məzmununun tam üst-üstə düşməsi erməni primitiv böhtanının iç üzünü bir daha açır. Onu da vurğulayaq ki, D.Tusk adətən ermənipərəst mövqe tutur. Onu kim pulla alıb?

Bütün bunlar iki aspektdə maraqlı nəticələr çıxarmağa əsas verir. Birincisi, ATƏT münaqişənin beynəlxalq hüquq çərçivəsində həllinə alternativ görmür. Bu səbəbdən həmsədrlər nə qədər passiv olsalar da, gec və ya tez münaqişə məhz beynəlxalq hüquq normaları çərçivəsində həll ediləcək. İkincisi, artıq beynəlxalq təşkilatlar erməni yalanlarını əsas götürmürlər. Onlar ədalətli mövqe tutmağa çalışırlar. Hələlik bu istiqamətdə hər şeyin normal olduğunu demək çətindir. Lakin ATƏT Parlament Assambleyasının iyul ayının əvvəllərində qəbul etdiyi növbəti qətnamə göstərir ki, yanaşmalarda praqmatiklik və ədalətə doğru xeyli dəyişiklik mövcuddur.

Buradan məsələnin geosiyasi çaları da aydın olur. Belə hiss edilir ki, Avropa İttifaqı qlobal geosiyasi mübarizədə uğur qazanmaq üçün fəaliyyət taktikasını dəyişməyin lazım gəldiyini anlayıb. Xüsusilə xarici siyasətdə ikili standartların ona zərər verdiyini dərk edir. O cümlədən islamofobiyanın yaratdığı riskləri görməyə çalışır. Əgər bu doğrudan da belədirsə, onda Aİ-nin geosiyasi nüfuzunun daha da artacağını proqnozlaşdırmaq olar. Bu, maraqlı bir nəticə olardı. Ən əsası isə dünyada Avropa ədalətin və hüququn məkanı olaraq qəbul edilərdi.

Əlbəttə, bir sənədə əsaslanaraq qəti qənaət əldə etmək çətindir. Bundan başqa, Avropada ermənilərə dəstək verən qərəzli dairələrin mövcudluğu da sirr deyil. Ancaq Azərbaycanın ərazi bütövlüyünə hörmətin zəruriliyinin vurğulanması və Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həlli lazımlığının ayrıca qeyd edilməsi yaxşı haldır. Gec və ya tez haqq öz yerini tutacaq!

**Newtimes.az**

# AXCP-də qız üstündə qırğın

*Və ya "Çəkilin, Makedonla Namiq dava edəcək..!"*




***AXCP daxilində davam edən ziddiyyətlərə daha biri də əlavə olunub. Belə ki, adıçəkilən partiyadakı inanılmış mənbədən "Səs"ə daxil olan dəqiq məlumata görə, təşkilatın 30 illik yubileyi ilə bağlı keçirilən növbəti tədbir qalmaqalsız ötüşməyib.***

Belə ki, Vidadi Mirkamalın bağ evində təşkil edilən ziyafətdə ciddi dava-dalaş baş verib. Məlum olub ki, AXCP sədrinin xüsusi "diqqət və qayğı" ilə yanaşdığı Fatimə Mövlamlının ziyafətə dəvət edilən qonaqların arasında olması partiyanın Cəlilabad rayon təşkilatının



sədri Təzəxan Mirələmi özündən çıxarıb. O, yumruğunu masaya vuraraq, ayağa qalxıb və "bu ləçəri bura kim dəvət edib?!" deyə yüksək tonla bağırıb. AXCP-çilər T.Mirələmi sakitləşdirməyə çalışsalar da, o, susmayıb, F.Mövlamlının polisin agenti olduğunu, hər ay Azərbaycan hökumətindən pul aldığını iddia edib.

### AXCP-çi: "Təzəxan, çox da şey eləmə, Əli bəy özü gətizdirib Fatiməni"

AXCP-nin Cəlilabad rayon təşkilatının sədrini heç kim sakitləşdirə bilməyib və aranın daha da qızışdığını görən cəbhəçilərdən biri sakitsə Təzəxanın qulağına tərəf əyilib və pıçıldayıb ki, "Təzəxan, çox da şey eləmə, Əli bəy özü gətizdirib Fatiməni".

Lakin buna rəğmən, aranın sakitləşəcəyini zənn edən AXCP-çilər fikirlərində yanılıblar. Çünki Ə.Kərimlinin Fatiməni özü ilə tədbirə aparması rayon təşkilatı sədrini daha da özündən çıxarıb və necə deyərlər, odun üzərinə benzin tökülüb.

### Təzəxan Mirələm: "Elə Əli bəy də Fatimə Mövlamlının tayıdır"

Daha dəqiq desək, T.Mirələm Ə.Kərimlini partiyanın dəyərlərinə, üzvlərinə hörmətsizlik etməkdə günahlandırıb, digər suçlamaları da önə sürüb. Hətta əsəblərinə hakim ola bilməyərək, daha da irəli gedib və "elə Əli bəy də Fatimə Mövlamlının tayıdır" deyib...



Nəticədə, münaqişə daha da dərinləşib, tərəflər arasında söyüş və təhqirlər, yumruq davası baş verib. Bu baxımdan, olayı olduğu kimi tam təsvir etmək etik qaydalara sığmadığı üçün həmin məsələdə kimin-kimə hansı təhqir ifadələri yağdırdığını yazmırıq. Ümumiyyətlə, aydın olur ki, AXCP də üzvlərin bir-birini həzm edə bilməmək mərəzi hələ çox davalara səbəb olacaq, necə deyərlər, bu xəmir hələ çox su aparacaq.

### Əli Kərimlinin əxlaqsızlıq yuvasına çevirdiyi AXCP növbəti dəfə parçalanmadan yan keçməyəcək

Bu arada, onu da xatırladaq ki, Ə.Kərimlinin gözəlçəsi kimi tanınan F.Mövlamlı dəfələrlə doğma anasına əl qaldırıb və bunun üstündə polisə aparılıb. O cümlədən, onun əyləncə mərkəzlərində içki içərək, göbəyi və sinəsi açıq şəkildə rəqs etdiyini əks etdirən videorolik "Youtube"də mövcuddur. Ümumiyyətlə, F.Mövlamlının əxlaqsızın biri olduğunu AXCP-də çoxları bilir və partiyanın Cəlilabad təşkilatının sədrinin məlum etirazı anlaşılandır. Ancaq Ə.Kərimlinin AXCP-ni "burada mənəm, Bağdadda kor Xəlifə" idarəçiliyi, avtoritarlığı, belə deməyə əsas verir ki, bu cür dava-dalaşlar hələ çox davam edəcək və nəticədə, Ə.Kərimlinin əxlaqsızlıq yuvasına çevirdiyi AXCP növbəti dəfə parçalanmadan yan keçməyəcək. Fakt ortadadır!

***Rövşən RƏSULOV***

# ƏLİ KƏRİMLİNİN AXC-nin YUBİLEYİNDƏN DANIŞMAĞA HAQQI ÇATMIR

*YAXUD 1991-ci İLDƏ AXC-dən ÇIXMAQ ƏRİZƏSİ YAZAN, 2000-ci İLDƏ PARTİYANI PARÇALAYAN FLYUGER FƏRARİLİYİNİ VƏ XƏYANƏTLƏRİNİ YADINA SALSIN*

***AXC-nin yaranmasının 30 illiyi ərəfəsində siyasi dividend qazanmaq üçün saxta yubiley təbriklərinə başlayan Əli Kərimli nəsil dəyişməsindən, o zamankı həqiqi cəbhəçilərin olmamasından sui-istifadə edərək, öz yerini möhkəmləndirməyə çalışır. Lakin unudur ki, Ə.Kərimli tarixi silmək və unutdurmaq iqtidarında deyil. Bu səbəbdən də, Əli Kərimliyə onun siyasi fərariliyini və xəyanətlərini bir daha xatırlatmaq lazımdır. Çünki hər il 20 Yanvar hadisələri ərəfəsində siyasi şou düzəldən Ə.Kərimlinin, əslində, bir xəyanətkar və satqın olması haqqında hər kəs məlumatlı olmalıdır. Kameralar qarşısında və cangüdənlərin əhatəsində olub tarixi faktları unutduracağına ümid edən flyüger çox yanılır.***

Ə.Kərimli də, yəqin unutmayıb ki, Rəhim Qaziyev və Nemət Pənahlı ilə birgə leytenant Şmidt adına "Şmit" zavodunda yaradılan Müdafiə Komitəsinin üzvü olub. Onlar 20 yanvarda SSRİ ordusunun Bakıya daxil olmasından qorumalı, şəhərin giriş-çıxışında qurulan barrikadalara bir növ nəzarət etməli idilər. Lakin 20 yanvarın səhəri gün Ə.Kərimli qeybə çəkildi və bir qədər sonra 21-də meydana çıxdı. Həmin vaxt isə Kərimlinin Müdafiə Komitəsinin üzvü olduğuna dair vəsiqəsi "Krasnaya Zvezda" qəzetində çap olunmuşdu. Qəzetin Moskvada çap olunduğunu nəzərə alsaq, bu vəsiqənin surətinin sürətlə Moskvaya kim tərəfindən göndərilməsi maraqlı idi. Qəzetdə əsaslandırılırdı ki, Bakıda orduya müqavimət olub, Müdafiə Komitəsi yaradılıb, Ə.Kərimli də onun üzvlərindən biri olub. Əlbəttə ki, buna heç də təəccüblənmək lazım deyildi. Çünki Ə.Kərimli "KQB"" tərəfindən "Malış"" ləqəbi ilə AXC və "20 Yanvar Müqavimət Hərəkatının içərisinə atılmış "agent"" idi.



Onun "agent"" olmasını sübut edən növbəti fakt isə, məhz AXC ilə bağlı oldu. Belə ki, 1991-ci il aprelin 27-də BDU-nun AXC təşkilatının idarə heyəti qərara alır ki, Azərbaycanın işğalı günü kimi aprelin 27-i qeyd edilsin. Azərbaycanın hələ Sovet əsarəti altında olduğu, Mütəllibovun hakimiyyəti dönəmində, təbii ki, universitet rəhbərliyi buna qəti etiraz edir, tədbirin təşkilatçılarını çağırıb, hədə-qorxu gəlir.

Bundan sonra AXC BDU təşkilatının idarə heyəti yenidən toplanır və bu toplantıda Ə.Kərimli 27 apreldə etiraz aksiyasının keçirilməsinə qarşı çıxır. Amma onun təklifi qəbul olunmur, aprelin 27-də aksiya keçirilir, amma polis zorakılığı ilə dağıdılan aksiyaya Ə.Kərimli qatılmır.

Bu hadisədən sonra Ə.Kərimli AXC sıralarından çıxmaq haqda ərizə yazır və bu ərizəni fəal AXC üzvlərindən olan Qəzənfər Əhmədova verir. Amma nə baş verirsə, Ə.Kərimli heç nə olmamış kimi gəlib idarə heyətinin iclasında oturur. Tələbə yoldaşları onu hərəkətinə görə danlayır, hətta hüquq fakültəsinin müəllimi İbrahim Vəliyev ona deyir ki, bu hərəkətin bir adı var - fərarilik. Hamının gözü qarşısında Ə.Kərimlinin AXC-dən istefa ərizəsi cırılır...

Təbii ki, Ə.Kərimlinin AXC içərisində qalmasını və sonrakı proseslərdə, əsasən, təxribatçı və separatçı qismində çıxış etməsini yenə də kəşfiyyat qurumları təşkil ediblər. Sonrakı proseslər, artıq hər kəsin gözü önündə olub. Ə.Kərimli Əbülfəz Elçibəyin xəstələnməsindən istifadə edib, partiya daxilində ciddi ixtilaflar yaradıb, hətta 2000-ci ildə AXC-nin rəsmən parçalanmasına səbəb olub.

Artıq AXC-nin parçalanmasından 19 il ötür. AXC yarananda idarə heyətinin 19 üzvü olub. Ancaq onlardan biri də Ə.Kərimlinin yanında qalmayıb. Hətta 2000-ci ildə partiya parçalananda, mövcud olan AXCP rəyasət heyətindən də Ə.Kərimlinin yanında kimsə yoxdu. Bütün bunlar, onu göstərir ki, Ə.Kərimli Əbülfəz Elçibəy mirasını mənimsəyir və AXCP-də yaratdığı diktatura partiya daxilində normal düşüncəli insanların üzə çıxmalarına imkan vermir.

Çox güman ki, cəbhəçi gənclər özlərində güc tapıb yazdığım faktları araşdıracaq və əslində, Ə.Kərimlinin Elçibəy mirasına xəyanət etdiyini, tam bir iflas olmuş siyasətçi, pis blogger olduğunu anlayacaqlar. Bax, əsl siyasi şou da bundan sonra başlayacaq...

***"Səs" Analitik Qrupu***

# Leyla Yunus Elçibəyi təhqir etdi, Əli Kərimli isə susdu

## *AXCP sədrinin öz liderinə antipatik hissləri qalmaqdadır*

***Sirr deyil ki, AXCP sədri Əli Kərimli hər zaman sözdə "liderim" adlandırdığı Əbülfəz Elçibəyi öz siyasi maraqları üçün istifadə edib və əməldə ona qarşı antipatik hisslər nümayiş etdirib. O da, bəllidir ki, məhz Elçibəy haqqında özünə yaxın mətbu orqanlarda təhqirlər yazdıran Ə.Kərimli, hətta onun ölümündə də günahkarlar sırasındadır.***

Bu arada, AXC hakimiyyəti zamanı müdafiə nazirliyində yüksək post tutmuş, hazırda Avropada yaşayan Leyla Yunus Sevinc Osmanqızının sosial şəbəkədəki canlı yayımı vasitəsi ilə Ə.Elçibəyə qarşı təhqirlər yağdırıb, onu "agent" adlandırıb və nə qədər maraqlıdır ki, cəbhəçilərdən heç biri L.Yunusun bu ittihamına, ümumiyyətlə, cavab verməyib. Bunun isə, əlbəttə ki, səbəbləri var. Əsas səbəblərdən biri yuxarıda qeyd olunanlardır. O cümlədən, Elçibəyin gözdən salınması, təhqir olunması, hətta vəfat etməsinə rəğmən,





yenə də barəsində ittihamların səsləndirilməsi AXCP sədrinin və ətrafının marağındadır. Çünki Ə.Kərimli AXCP deyərkən, Elçibəyin adının deyil, öz adının "lider" kimi təqdim olunmasını istəyir.

### Əli Kərimli qrantalma kanalını bağlamaq istəmir, hətta Leyla Yunus Elçibəyi təhqir edərkən, belə susmağa üstünlük verir

Ə.Kərimlinin susmasına daha bir səbəb onun L.Yunusla münasibət saxlamaq marağıdır. Daha dəqiq desək, o, L.Yunusun vasitəsi ilə dəfələrlə xarici qrantlar qazanıb, özü də külli miqdarda. Məsələn, xatırlaya bilərik ki, 2016-cı ildə "siyasi məhbus" siyahısı hazırlanarkən, düşərgədə kəskin qarşıdurmalar yaşanmışdı. Həmin vaxt Ə.Kərimli Xədicə İsmayılın deyil, məhz L.Yunusla Oktay Gülalıyevin hazırladığı "siyahıya" qahmar çıxmış, bir sıra anti-Azərbaycan dairələrin onlara xərclədiyi qrantlardan özü də bəhrələnmişdi. Məhz bu kimi bənzər amillərə görə, Ə.Kərimli qrantalma kanalını bağlamaq istəmir, hətta L.Yunus Elçibəyi təhqir edərkən, susmağa üstünlük verir. Cəbhəçi sədr üçün mənəviyyat, vicdan faktoru olmadığına görə, daha doğrusu, onun üçün maddiyyat marağı hər şeydən üstündür. Bu baxımdan da, sözügedən məsələdə susqun qalmağı tərcih edir.

### Sevinc Osmanqızı Əbülfəz Elçibəyin rəhbərlik etdiyi AXC-nin Ayaz Mütəllibov hakimiyyətinə qarşı mübarizəsini və onu hakimiyyətdən devirməsini heç cür bağışlaya bilmir

Digər diqqətçəkici məqam isə, bu təhqirlərin, məhz S.Osmanqızının kanalında səsləndirilməsidir. L.Yunusla yanaşı, onun qaynı Ramis Yunusun da Elçibəyi "ağ yuyub-qara sərmələri" məsələsi arxasında digər nüans qisasçılığa yönəlib. Məsələn, qeyd etmək olar ki, S.Osmanqızı Əbülfəz Elçibəyin rəhbərlik etdiyi AXC-nin Ayaz Mütəllibov hakimiyyətinə qarşı mübarizəsini və onu hakimiyyətdən devirməsini heç cür bağışlaya bilmir. Çünki mərhum atası Osman Mirzəyev də A.Mütəllibovun komandasında yüksək vəzifə sahibi idi.

L.Yunus isə, öz növbəsində, deyib ki, Elçibəy Sovet İttifaqı dövründə rejim barədə yalan və böhtan yaydığına görə həbs olunmuşdu, cəmi 1 ildən sonra azadlığa çıxıb: "Onun azadlığa çıxmasının ciddi səbəbləri var idi. Bu səbəblərdən biri "KQB" ilə əməkdaşlıq ola bilər. Sonrakı araşdırmalar onu göstərir ki, elə, məhz "KQB" ilə əməkdaşlığa razı olması onun azadlığa çıxmasının əsas səbəbi idi..."

Digər tərəfdən, L.Yunusun Elçibəyi təhqir edən müsahibəsini sosial şəbəkədə paylaşan insanlar, AXCP sədri Ə.Kərimlinin yaxın ətrafını, o cümlədən, Fuad Qəhrəmanlını tağ edərək, məsələyə münasibət bildirilməsini istəsələr də, AXCP funksionerləri susublar. Yəni S.Osmanqızının əli ilə L.Yunusun Elçibəyi söyməsi Ə.Kərimlinin əlinə oynayan kartdır.

***Rövşən RƏSULOV***

# Yenə də qoca professor gah nala, gah mıxa döyəcləyir

## *Yaxud Cəmil Həsənli vətəndaşlıq amilini terrorçuluqla necə səhv salır?*

***Zaman-zaman, sərsəm iddialarla çıxış edən "Milli Şura"nın sədri Cəmil Həsənli növbəti sərsəmliyini nümayiş etdirib. Bu da, təbii haldır. Qarnının bir azarı var: nəyin bahasına olursa-olsun, hakimiyyətə qarşı qarayaxma kampaniyaları aparmaqla, nə qədər şərbaz və böhtançı olduğunu sübuta yetirməkdir. Əbəs deyil ki, Azərbaycandan kənarda fəaliyyət göstərən qərəzli media qurumlarına müsahibələrində də yalanın birini bir qəpikdən sıryan C.Həsənli hakimiyyətə qarşı ittihamlarını, o dərəcədə artırır ki, hətta ondan müsahibə alan xarici media qurumları belə, bu yalanlardan təəccüblənirlər.***

### Cəmil Həsənli, yeri gələndə, şeytanla da iş birliyi qura bilir

Dediyi şər-böhtandan biri də "Amerikanın səsi"nə verdiyi müsahibəsində açıq-aydın çirkin niyyətini nümayiş etdirib. C.Həsənli bildirib ki, Azərbaycanda terrorla mübarizə düzgün aparılmır. Ancaq anlamır ki, təhlükə saçan terrorçu, hüquq-mühafizə



orqanlarının təslim olmaq çağırışlarına, əmrlərinə cavab vermirsə, o zaman həmin cinayətkar yerindəcə güllələnməlidir. Ancaq C.Həsənli bunu qəbul etmir və bildirir ki, terrorçu güllələnməməlidir. C.Həsənlinin absurd iddiası, terrorçunun məhkəməsiz - istintaqsız güllələnməsi fikirləri ilə razılaşmaması məntiqsiz olduğu qədər, həm də gülüncdür.

ABŞ hüquq-mühafizə orqanları, özlərinə qarşı ən cüzi təhlükə hiss edərkən, qarşısındakı insanlara atəş açaraq, onları qətlə yetirirlər. Avropa polisi də sərt addımları atır.

Sual yaranır, C.Həsənli elə müsahibə verdiyi "Amerikanın səsi"nə ABŞ-da bir ildə nə qədər silahlı cinayətkarların yerindəcə güllələnməsi faktı barədə niyə danışmayıb? Çünki digər ölkələrdən fərqli olaraq, ABŞ hüquq-mühafizə orqanları silah təhdidi olmasa da, yəni özlərinə qarşı ən cüzi təhlükə hiss edərkən, qarşısındakı insanlara atəş açaraq, onları qətlə yetirirlər. Görəsən, qoca və ağlını itirmiş professor yalan iddialarını danışarkən, bu barədə düşünübmü? Əlbəttə ki, yox. Çünki bunu desə, zatən, "Amerikanın səsi" həmin fikirləri ictimailəşdirməzdi, yaxud C.Həsənli ilə müsahibəsini yarıda qoyardı. Belə bir sərsəm iddia C.Həsənlinin dünyagörüşünün olmadığını, təcrübəsiz və naşı siyasətbaz olduğunu kifayət qədər təsdiqləyir.

Yeri gəlmişkən, o da bəllidir ki, bu gün Azərbaycan xalqı Ermənistanın təcavüzkar və işğalçılıq siyasətindən əziyyət çəkir. İşğal nəticəsində, 1 milyondan çox vətəndaşımız doğma yurd-yuvalarından məhrum olublar, onların hüquqları pozulub, xüsusilə, Ermənistandakı terrorçu rejim yüzlərlə insanlarımıza qarşı terror siyasəti yürüdüb, onları amansızlıqla qətlə yetirib. Görəsən, C.Həsənli "Amerikanın səsi"nə bu barədə niyə danışmayıb?

Bax, budur bələlərinin xisləti - öz mənfəətləri üçün terrorçuları "vətəndaş" amili ilə dəyişib, qara-qışqırıq salmaq, həyasızlıq etmək ənənələri! Bax, budur, rəzalət. Bütün deyilənlərdən belə nəticə çıxır ki, rəzalətin başında elə C.Həsənlinin özü dayanır.

***R.HÜSEYNOVA***

### "Paşinyan səriştəsizliyi ucbatından hər şeyi gözdən salır"

"Ümumiyyətlə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələ gah ümidlər yaradır, gah da Paşinyan və onun komandasının səriştəsizliyi ucbatından hər şeyi gözdən salır. Amma son dövrlərdə danışıqlar prosesinin siyasi əsaslarını müəyyən edən məsələlərdə ciddi gəlişmələr olub". Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.

Politoloqun sözlərinə görə, bu günə qədər ATƏT Azərbaycanın ərazi bütövlüyü təcrübəsində problemin həllini qəbul etmirdisə, sonuncu onun Zirvə toplantısında bütün postsovet məkanındakı münaqişələr kimi Dağlıq Qarabağ münaqişəsini də Azərbaycanın ərazi bütövlüyü çərçivəsinə həll edilməsi haqqında qərar qəbul etdi: "Təbii ki, bu çox müsbət gəlişmədir. Artıq dünya qurumları və böyük dövlət arasındakı fikir ayrılıqları demək olar ki, minimuma enib. Amma Ermənistan tərəfi ipə yatmır. Görünür bu məsələdə nələrsə etmək lazımdır. Biz bunun yolunu Ermənistana güc tətbiq etməklə, təzyiq yolu ilə onu diplomatik danışıqlara cəlb etməklə mümkünlüyünü düşünürdük. Amma hələki Azərbaycan Ordusunun güclənməsinə, döyüşə hazır olmasına baxmayaraq böyük dövlətlərin müqaviməti ucbatından bunu həyata keçirmək mümkün olmur".

### Ermənistanda strukturlar nəzarətdən çıxıb

Təhsil Təftiş İdarəsinin rəhbəri rəhbərlik etdiyi strukturda vəziyyətə nəzarət etmir. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə "Jamanak" qəzeti yazır. Qəzet öz mənbələrinə istinadən yazır ki, Təhsil Təftiş İdarəsində olduqca gərgin vəziyyət yaranıb. İşçilər bir-birinə hesabat yazırlar və nəticədə ortaya çıxan narazılıq strukturda nəzarətsiz bir vəziyyətdən xəbər verir. Təhsil Təftiş İdarəsinin rəhbəri Aleksandr Şaqafyan, başçılıq etdiyi strukturdakı vəziyyətə əslində nəzarət edə bilmir. Məlumata görə strukturda vəziyyətə nəzarəti Şagafyanın müavini Raya Qalstyan edir.

Eyni zamanda nəşr qeyd edir ki, vəziyyətə nəzarət etmək üçün Təftiş Bürosunun ümumi təhsil şöbəsinin müdiri Sasun Ambartsumyan tərəfindən bəzi cəhdlər edilirsə də nəticəsiz qalır.

# Dağıdıcı müxalifət üçün dar bir baxış var

## Sərdar Cəlaloğlu təmsil olunduğu düşərgəni ittiham etdi

***Son vaxtlar ənənəvi müxalifət düşərgəsində total şəkildə böhranın baş qaldırması partiya daxilində qarşıdurmalara və istefalara gətirib çıxarmaqdadır. Ümumiyyətlə, bütün seçkilərdən sonra reallıq onu göstərir ki, düşərgə "liderləri" bir müddət "demokratik düşüncələri"ni partiyadaşlarına izhar edəndən sonra çəkilib kənarda duraraq, məğlubiyyətlərinin acısını yaşamağa başlayırlar.***



ADP sədri Sərdar Cəlaloğlu müxalifəti "cəmiyyətin güzgüsü" adlandırsa da, əslində, bu "güzgü"nün qırılaraq, çilik-çilik olduğunu bildirib. Burada isə, əsas səhvin, bilavasitə partiya sədrlərin də olduğu qeyd olunur. "Bu gün Azərbaycanda aparılan islahatlara münasibət bildirməzdən öncə, müxalifətin düşdüyü vəziyyətə baxmaq lazımdır" deyən ADP sədrinə görə, müxalifətin getdikcə zəifləməsi faktı daxildən araşdırılmalıdır.

S.Cəlaloğlu açıqlamasında, onu da bildirib ki, müxalifət partiyaları düşdükləri böhranın qarşısını almaq üçün heç bir addım ata bilməzlər. "Hazırkı süstlük bir total böhrandır" deyə qeyd edən müxalifətçi partiya sədri də digər müxalif "liderlər" kimi onlara dəstək verməyən xalqı ittiham etsə də, digər tərəfdən, əsas günahın özlərində olduğunu da etiraf edib. Misal üçün, "Azərbaycanda siyasi- ictimai sektorda böhranın səbəblərindən biri subyektiv amildir, vətəndaşların özünün şüur səviyyəsidir, passivliyidir" deyən ADP sədri, istəsələr belə, xalqı öz tərəflərinə cəlb edə bilməyəcəklər. ADP sədri vurğulayıb ki, müxalifət demokratiyadan uzaqdır. Bunun nəticəsində, düşərgədəkilər ayrı-ayrılıqda bir-birlərini digərindən üstün və güclü sayır: "Demokratiyadan uzaqlaşmaq isə, ona gətirib çıxarır ki, hər kəs özünü daha güclü sayır, daha ağıllı sayır, bir-birinə dözümlülük, uzlaşmalar, birləşmək meyilləri sıradan çıxır. Hətta ayrı-ayrı partiyaların özünün daxilində belə, bu demokratik dəyərləri, artıq müşahidə eləmək mümkün deyil".

ADP sədrinə görə də, siyasi partiyalarda birlik, təmərküzləşmə, ümumi maraqlara görə bir addım geriyə atmaq meyilləri yoxdur: "Bütün müxalifət partiyalarının hər biri özünü "lider" hesab edir. Ona görə də, müxalifət düşərgəsində "birlik" sözü ancaq söz olaraq qalır. Belə bir vəziyyətdə biz hansı aktivlikdən, demokratik dəyərlərdən və bir araya gəlməkdən danışa bilərik. Azərbaycan müxalifəti üçün dar bir baxış var-hakimiyyətə gəlmək. Yerdə qalan heç bir məsələ barədə Azərbaycan müxalifəti nə düşünür, nə də maraqlanır".

### "Düşərgə daxilində demokratik meyillər sıfır dərəcəsindədir"

S.Cəlaloğlu, onu da etiraf edib ki, düşərgə daxilində demokratik meyillər sıfır dərəcəsindədir və həmin amil ənənəvi müxalifəti məhvə doğru sürükləyir: "...Böhrandan çıxa bilməmənin səbəblərindən biri müxalifətin özünün demokratik böhran keçirməsi ilə bağlıdır. Artıq partiya liderlərinin əksəriyyəti ritorikalarında belə, demokratiya sözündən istifadə eləmirlər, demokratik dəyərlərdən danışan yoxdur və əməli işində də demokratik prinsip və dəyərləri rəhbər tutan müxalifətçi yoxdur. Azərbaycan müxalifəti siyasi ayırma siyasəti aparır, amma siyasi birləşməni həyata keçirmir. Böhranımızın ən ciddi səbəblərindən biri budur. Biz, necə ki, birləşmə qabiliyyətinə malik deyilik, düşdüyümüz böhrandan çıxa bilmərik".

Göründüyü kimi, ADP sədri reallıqları açıq-aydın bildirir və vurğulayır ki, bu həqiqəti dərk edə bilməyən digər müxalifət "liderləri" günahı xalqda və hakimiyyət dairələrində deyil, özlərində axtarmalıdırlar. Axtara bilmirlərsə, deməli, siyasi ölümün caynağından çıxa bilməyəcəklər.

Beləliklə, bütün bu reallıqlar, onu sübut edir ki, artıq müxalifətin qatarı çoxdan gedib və bütün hallarda, ənənəvi və naftalin qoxusu verən düşərgə "liderləri" geri çəkilməlidirlər.

**Rəfiqə HÜSEYNOVA**

# Parçalanmış "AXH" - müxalifət bu sindromdan çıxa bilmir

Daxilində yarandığı vaxtdan ziddiyyətlər müşahidə edilən "Azərbaycan Xalq Hərəkatı" adlı qurum bu dəfə qarşıdurmalara, intriqa və çəkişmələrə dözməyib, rəsmən parçalandı. Parçalanma sindromları daha əvvəllər də müşahidə edilsə də, hətta qurumun haçalanmış qanadları eyni gündə ayrı-ayrı iclaslar keçirsələr də, rəsmi parçalanma məsələsi gündəmə çıxmırdı. Lakin onu gündəmə çıxaran da, ayrılıqda iclas keçirib, rəhbərlik postlarını müəyyənləşdirən də, Azərbaycan Milli Demokratik Partiyasının (AMDP) sədri İsgəndər Həmidov oldu. Əbəs deyil ki, onun tərəfində olanlar - Xalq Azadlıq Partiyasının sədri Valeh Mirzəyev "AXH"-nin ali məclisinin sədri, Azərbaycan Liberal Demokratik Partiyasının sədri Fuad Əliyevlə Azad Azərbaycan Partiyasının sədri Həsən Həsənov isə onun müavinləri seçiliblər. Ümumiyyətlə, idarə heyətinin tərkibi 26 nəfərdən ibarət olub. Bu isə, bilavasitə adıçəkilən qurumun parçalanması və artıq iki "AXH"-nin ayrı-ayrılıqda fəaliyyət göstərməsi reallığını ortaya qoyub.

### "Mediada, ictimaiyyət arasında "AXH" ilə bağlı sualların cavabı getdikcə tapılır"

Əks-qanadda olanlar isə, İ.Həmidovun tərəfdarları olan "hərəkatı" real olaraq tanımadıqlarını qeyd edirlər. Misal üçün, "Vətəndaş və İnkişaf Partiyası"nın ("VİP") sədri Əli Əliyev həm də dönəm sədri olduğu üçün, belə bir bəyanat yayıb ki, hər iki tərəfin özünün məsələyə münasibəti ola bilər. "Burada ən yaxşı hakim zamandır" deyən "VİP" sədri əlavə edib ki, tədricən insanlar nəyin harada olduğunun fərqinə varmağa başlayıblar və baş verənlər, artıq düzgün qiymətləndirilir. Ona görə biz narahat deyilik. Beləliklə, İ.Həmidov qanadının hansı qərar çıxarmasından asılı olmayaraq, Ə.Əliyev öz işlərini davam etdirəcəklərini qeyd edib və bildirib ki, parçalanmanın özü hər şeyi aydın edir: "Tədricən proses aydınlaşmağa doğru gedir. Mediada, ictimaiyyət arasında



"AXH" ilə bağlı sualların cavabı getdikcə tapılır".

### Parçalanma əmrini İsgəndər Həmidova Əli Kərimli-Cəmil Həsənli cütlüyü verib

Ə.Əliyev əks-qanadın məclis və müavin postları təşkil etməsinə də mövqeyini bildirib. "Biz öz fəaliyyətimizlə məşğuluq. Fəaliyyətimiz də əsasnaməyə söykənir. Əsasnamədən kənar heç bir iş görmürük. Bizim əsasnaməyə görə, məclis və rayon şöbələri təşkil olunmalıdır. Hazırda bu işlərlə məşğuluq. İşlərimizi getdikcə daha da gücləndiririk. Müxtəlif rayonlarla təmaslarımız artmaqdadır. Məclis üzvləri müəyyən ediləndən sonra sosial siyahı ilə deyil, konkret mövqeləri olan təmsilçilərin siyahısı əsasında məclisimiz keçiriləcək" deyə qeyd edən "VİP" sədri cavab tədbirləri görüləcəyini gizlətməyib.

Bununla vəziyyətin daha da kritik həddə çatdığını demək olar. O cümlədən, artıq belə bir qənaətə gəlmək mümkündür ki, əgər AMDP sədri İ.Həmidov zaman-zaman "Milli Şura" və AXCP-nin yanında görünürsə, onun müəyyən sövdələşmələrə gedərək, "AXH"-nin fəaliyyətini, daha doğru desək, parçalanmasını, bilavasitə Əli Kərimli-Cəmil Həsənli cütlüyündən sifariş aldığını deyə bilərik. Bu baxımdan, qarşıda daha ciddi və barışmaz müxalifətdaxili savaşların start alacağını proqnozlaşdırmaq mümkündür.

**İ.ƏLİYEV**

# Cəmil Həsənli siyasətdən uzaqlaşdırılacaq

***Son vaxtlar "Milli Şura"nın sədri Cəmil Həsənli ilə qurumun qeyri-rəsmi rəhbəri, AXCP sədri Əli Kərimli arasında qarşıdurma özünün pik nöqtəsinə yüksəlib. Eyni qurumda "Milli Şura"da təmsil olunan bu şəxslərin gözlənilmədən bir-birinə qarşı ittihamlar irəli sürmələri nədən irəli gəlir və ola bilərmi ki, qarşılıqlı ziddiyyətlər nəticə etibarı ilə onların ayrılmalarına gətirib çıxarsın? Söhbət etdiyimiz müsahiblərimiz C.Həsənli ilə Ə.Kərimlinin iddialarının toqquşması səbəbindən, onların uzun yol getmələrinin mümkün olmadığını bildirdilər.***

### Təkamül Partiyasının sədri Teyyub Qənioğlu: "Milli Şura" müəyyən mənbələrdən maliyyə dəstəyi alır"



- Əli Kərimli ilə Cəmil Həsənli arasında bu konfliktin baş verməsi maraqlı situasiya yaradır. Reallıq ondan ibarətdir ki, Ə.Kərimli şəxsi ambisiyalı insandır, həmişə birinciliyə can atır. Amma "Milli Şura" yarananda, bəzi obyektiv-subyektiv səbəblərdən, Ə.Kərimli önə çıxmaq istəmədi, yəni C.Həsənlini qabağa itələdilər və C.Həsənli "Milli Şura"nın sədri seçildi, amma Ə.Kərimli daxilində bu situasiyanı qəbul etmirdi. Yəni müxalifət liderlərinin şəxsi ambisiyalarının olması onlar arasında bu cür vəziyyətlərin yaranmasına səbəb olur. Bir sözlə, müxalifət liderləri arasında liderlik uğrunda mübarizə gedir. İkinci bir səbəb isə, bildiyiniz kimi, heç kəsə sirr deyil ki, "Milli Şura" müəyyən mənbələrdən maliyyə dəstəyi alır. Bəlkə də onlar maliyyə dəstəyini bölüşdürmək məsələsi ətrafında bir-biri ilə savaşırlar. Yəni mən bu iki səbəbi görürəm. Ümumiyyətlə, onların maraqları toqquşan zaman başlayırlar bir-birləri ilə intriqalar aparmağa. Yəni mənafe toqquşmaları, başqalarının mənafelərinə göz yummaq cəhdləri narazılığa və bu cür halların yaranmasına gətirib çıxarır.

### TOHGMİB-nin sədri Emin Həsənli: "Müxalifət partiya sədrləri arasında qarşıdurmalar olub və bundan sonra da olacaq"



- Hər zaman müxalifət partiya sədrləri arasında qarşıdurmalar olub və bundan sonra da olacaq. Çünki müxalifət düşərgəsini təmsil edən liderlərin şəxsi ambisiyalarının olması onların bir-biri ilə yola getməməsinə səbəb olur. Bir sözlə, həmin liderlər özlərini biri-birindən üstün tuturlar. Bu da, nəticə etibarı ilə onlar arasında intriqaların yaranmasına səbəb olur. Ümumiyyətlə, bu gün müxalifətin özü də çox gözəl bilir ki, bundan sonra onlar nəyəsə nail ola bilməyəcəklər. Sadəcə olaraq, reallığı özündə əks etdirməyən xəyalların qururlar. O cümlədən də, müxalifətin xalq tərəfindən də heç bir dəstəyi yoxdur.

**GÜLYANƏ**

# Erkən evlilik, yoxsulluq problemləri və gender stereotipləri

***Qızları erkən evlilik kimi hüquq pozuntusuna sürükləyən amillərdən biri də yoxsulluq problemidir. Çünki gəlir səviyyəsinin sənayeləşmənin aşağı olduğu ərazilərdə qadının fiziki və intellektual əməyinə ehtiyac azalır. Belə cəmiyyətlərdə kişinin sosial-iqtisadi rolu artır. Mövcud durum, cəmiyyətdə və ailədə gender rollarının qeyri-mütənasib şəkildə bölünməsinə şərait yaradır. Buna görə də, modernləşməmiş yoxsul cəmiyyətlərdə gender bərabərliyini pozan patriarxal ənənələr aktiv olur. Belə cəmiyyətlərdə qadının gender rolu ana olmaq və ev təsərrüfatı ilə məşğul olmaq çərçivəsində məhdudlaşır.***

Rauf Məmmədov yazır: "Yoxsul ailələrdə qız uşaqlarının sayı çox olanda, onların ailədaxili əməyinə də ehtiyac azalır. Belə bir durumda, qızlar ailə büdcəsi üçün yük olurlar. Onların erkən ərə verilməsi, bu yükün azalmasına və üstəlik, maddi gəlirin əldə olunmasına şərait yaradır. Çünki patriarxal cəmiyyətlərdə qızların ataları tərəfindən müəyyən pul miqdarında alınıb-satılması (başlıq) halları geniş yayılmışdır.

Bu gün Asiya və Afrika ölkələri Qərbin mövcud durumuna yetişmək üçün, onların keçdikləri tarixi təkamülün pozitiv cəhətlərini həyata keçirməli və yaşamalıdırlar. Yəni sosial-iqtisadi inkişaf, təhsil səviyyəsinin yüksəldilməsi, insan hüquqlarının tətbiqi və demokratiyanın inkişaf etdirilməsi kimi məsələlər çox mühümdür. Əks halda, minilliklərlə şüurlarda həkk olunan patriarxal stereotiplər müasir inkişaf üçün maneə olar.

Bir günlük gəliri 1,25 ABŞ dolları olan dünya əhalisinin göstəricilərinə diqqət yetirsək, görərik ki, dünyada erkən evlilik, gender bərabərsizliyi, ana ölümləri və təhsil səviyyəsi göstəriciləri ilə əhalinin aşağı gəlir səviyyəsi göstəriciləri üst-üstə düşür.

Küveyt, Səudiyyə Ərəbistanı və Qətər kimi sosial-iqtisadi baxımdan təminatlı ölkələrdə də erkən evliliyin, qadınlara qarşı zorakılıq hallarının çox olduğunu müşahidə edirik. Bir çoxları onlarda təhsil səviyyəsinin, demokratiyanın və insan hüquqlarının olmadığını arqument kimi irəli sürə bilərlər. Bəli, bu, belədir. Deməli, yalnız rifah bu məsələlərin həllində həlledici rol oynamır. Çünki bu ənənənin yoxsullar arasında yayılmasını bir qanunauyğunluq kimi qəbul etsək, o zaman bu ənənə bütün yoxsul əhali tərəfindən dəstəklənməli və tətbiq olunmalıdır. Halbuki bu, belə deyildir. Deməli, yoxsulluq problemi, erkən evliliyə səbəb olan əsas amillərdən biri olsa da, əsas deyildir. Erkən evliliyin mahiyyətində dayanan əsas problem gender stereotipləridir. Onlardan azad olmadan, problemin həlli mümkün deyil."

Azərbaycanın bir çox bölgələrində erkən evliliyin neqativ (Ağstafa, Tovuz), bəzilərində isə pozitiv (Lənkəran, Abşeron, Quba) dəyərləndirilməsi gender stereotipləri ilə bağlıdır. Çünki bu bölgələrin sosial-iqtisadi vəziyyətləri arasında böyük fərqlər yoxdur. Lakin onların erkən evliliyə münasibətində fərqlər çoxdur. Digər tərəfdən, erkən evlilik ənənəsinin yalnız yoxsul ailələrdə deyil, cüzi də olsa, varlı ailələrdə də müşahidə etmək mümkündür.

Bu, adətən, varlı və tanınmış ailələr arasında şansı əldən verməden qohumluq əlaqələrinin qurulması istəyindən irəli gəlir. Lakin bu, çox az hallarda baş verir.

Qızları yoxsul ailələrdə iqtisadi yük (qız yükü-duz yükü), varlı ailələrdə səmərəli əlaqə vasitəsi kimi dəyərləndirən şüur primitiv patriarxal düşüncənin məhsuludur. Bu şüurun daşıyıcıları yanlız kişilər deyil, həmçinin, qadınlar da ola bilər. Çünki ənənəvi şəkildə ötürülən tərbiyə mexaniki şəkildə stereotiplərin formalaşmasına və arxetiplərin fəallaşmalarına şərait yaradır.

Azərbaycanda bir milyondan artıq qaçqın və məcburi köçkün vardır. Onların bir çoxu çətin şəraitdə yaşayır. Yoxsul qaçqın ailələrində erkən evlilik halları, məhz dözülməz maddi çətinlik halları ilə bağlı ola bilər. Bu, valideynləri qızları erkən ərə vermək barədə fikirləşməyə vadar etdiyi kimi, qızların özlərinin də belə bir fikrə gəlmələrinə təsir göstərə bilər.

R.Məmmədov göstərir ki, erkən evlilik məsələsi SSRİ dövründə qəti qadağan edilsə də, SSRİ-nin süqutundan sonra bir çox əyalətlərdə bərpa olundu. Çünki bu stereotip SSRİ-nin qurulduğu və formalaşdığı illərədək Azərbaycan ərazisində yayılmışdı. Həmin ənənənin daşıyıcısı olan nəsil bu gün mövcud olmasa da, mədəni dəyərlər vasitəsilə ötürülən adətlər öz varlığını qorumaqdadır. Bu gün cəmiyyətdə formalaşan yeni sosial-mədəni mühitdə bəzi adət-ənənələr öz əhəmiyyətini itirsə də, bəzi əyalətlərdə onlar öz varlıqlarını yenidən bərpa edibdir.

Erkən evliliyə səbəblər arasında adət-ənənələr 29% təşkil edir. Respondentlərin bir çoxu erkən evliliyin sosial-iqtisadi səbəblərlə deyil, adət-ənənələrlə bağlı olduğunu iddia edirlər. Bu, böyük göstəricidir. Lakin adət-ənənə deyəndə, nə nəzərdə tutulur?

Bir çox ailələr erkən evliliyin islam dini ilə bağlı olduğunu düşünür və bununla, özlərinə haqq qazandırmağa çalışırlar. Araşdırmalar göstərir ki, erkən evliliyin islam dini ilə deyil, ondan əvvəl mövcud olan cahiliyyə dövrünün adətləri ilə birbaşa bağlılığı vardır. Məsələn, cahiliyyə ərəblərinin qız uşaqlarını diri-diri torpağa basdırmaları, onları istədikləri kimi alıb-satmaları, kiçik yaşlarda onları ərə vermələri buna misal ola bilər.

R.Məmmədov yazır: "Azərbaycanın qərb bölgələri, cənub və şimal bölgələrindən gender bərabərliyi baxımından kəskin fərqlənir. Cənub və şimal bölgələrində patriarxal ənənələrin daha çox qorunub- saxlandığı müşahidə olunur. Bu, bir tərəfdən, cənub bölgəsinin İrana yaxın olması və oradan təsir alması ilə də bağlı ola bilər. Çünki İranın Azərbaycan ilə sərhəd bölgələrində erkən evlilik səviyyəsi daha yüksəkdir. Həmçinin, İranda əksər şiə ruhaniləri arasında erkən evlilik məsələsinə pozitiv münasibət, onların təsiri altında olan cənub bölgəsi ruhanilərinin də baxışlarını müəyyənləşdirir. Şiəlikdə mərci-təqlid məsələsi burada xüsusi rol oynayır.

Quba və digər şimal bölgələrində erkən evliliyə neqativ münasibət bəsləyənlərin səviyyəsi 13%-dir. Bu, Qubada və ətraf ərazilərdə erkən evliliyə meyilliliyin, potensial olaraq, yüksək olduğunu göstərir. Düşünürük ki, burada da yanlış dini stereotiplərin özünəməxsus rolu vardır. SSRİ-nin süqutundan sonra Şimali Qafqazın vəhhabi və sələfi adı ilə tanınan radikal sünni islamçıların ideoloji mərkəzlərindən birinə çevrilməsi, Azərbaycanın şimal bölgələrinə öz təsirini göstərmişdir. Bundan əlavə, hələ Çar Rusiyası dövründə Şimali Qafqazda və Azərbaycanın şimal bölgəsində radikal sünniliyi təbliğ edən təriqətin geniş yayılması da öz tarixi-ənənəvi təsirini şüurlarda qoymuşdur. Bu baxımdan, Şimali Qafqazda və sərhəd şimal bölgəsində dini təsəvvürlərin formalaşmasında Səudiyyə Ərəbistanının və Türkiyənin bəzi şeyxlərinin rolu böyükdür. Bu şeyxlər erkən evliliyi dəstəkləyən fətvaları ilə tanınırlar."

Azərbaycanın qərb bölgələri İran və Şimali Qafqaz ilə sərhəddə yerləşmədiyi üçün, onların birbaşa təsirlərinə məruz qalmırlar. Bu bölgələrdə qədim türk adətləri ilə islam ənənələrinin sintezi əsasında formalaşan "xalq islamı" ənənələri fenomeni daha güclüdür. Buna görə də, qərb bölgəsində erkən evlilik səviyyəsi aşağıdır.

Azərbaycan xalqının milli mentalitetində yer alan bir çox deyimlər cəmiyyətdə gender bərabərliyinin pozulmasına şərait yaradır. "Qız yükü-duz yükü", "Tez evlənənlə tez yuxudan duran qazanar" deyimləri xalq arasında erkən evliliyə təkan verən deyimlərdir. Azərbaycanda valideynlər, ənənəvi olaraq, öz övladlarını evləndirmək vəzifəsini digərlərindən üstün tuturlar. Bəzi valideynlər qızlarını ərə verməkdən başqa vəzifələrinin olmadığını düşünürlər. Onlara görə, qızların təhsil almaları, bir sənət və peşə sahibi olmaları vacib deyildir. Çünki onlar ərlərinin çörəyini yeməli və uşaqlara baxmalıdırlar. Əslində, valideynlər bununla qızlarının iqtisadi yükünü çəkməkdən imtina edərək, onları erkən yaşda ərə verirlər. R.Məmmədovun fikrincə, evliliklərə səbəb olan amillərdən biri də, valideynlərin qızlarının qoşulub qaçmaları və ya aldadılmaları ilə bağlı qorxularıdır. Bölgələrdə gənclərin bir-biri ilə ünsiyyəti və birgə əylənmələri problemlərinin olması, qızların ərə gedənədək, cinsi əlaqədə olmalarının qadağan olunması, erkən cinsi yetkinliyə çatmış qızların ərə getmək meyilini daha da artırır. Son dövrdə internetdə əxlaqsız saytların, sosial şəbəkələrin məktəbli oğlan və qız uşaqlarına əlçatan olmaları, gənclərdə intim hisslərin artmasına səbəb olur. Bu, bəzən, valideynlərin qızlara qarşı zorakılıq etmələrinə, onların hərəkətetmə imkanlarını məhdudlaşdırmalarına, onlar üzərində nəzarəti daha da gücləndirmələrinə səbəb olur. Buna görə də, xalq arasında "qızını vaxtında döyməyən, sonra dizinə döyər" deyimi meydana çıxmışdır. Mövcud vəziyyətdən çıxış yolu kimi, bəzi valideynlər erkən evliliyə qərar verirlər. Çünki onlar, bununla, özlərini ictimai qınaq obyektinə çevrilmək təhlükəsindən qoruyurlar.

Ənənəvi patriarxal Azərbaycan ailəsində qadınlar ərlərinə itaətkar münasibətdə olurlar. Yəni qadınlar ailədə və cəmiyyətdə ərlərinin sosial statusunu artırmaq üçün, onların fikir və fəaliyyətlərinə dəstək olurlar.

Çünki ənənəvi cəmiyyətdə ailənin və sosial sistemin mövcudiyyəti bu itaətkarlıq üzərində bərqərardır. Əgər qadın ailədə ərinə tabe olmaqdan imtina etsə və onun nüfuzunu uşaqların və qohumların yanında aşağı salsa, ailədə ümumi itaətkarsızlıq və özbaşınalıq mühiti yarana bilər. Belə bir mühitin yaranması qadın üçün də sərf etmir. Çünki ailə dağılır və uşaqların tərbiyəsi nəzarətdən çıxır. Buna görə də, qadın öz ərindən bir neçə dəfə ağıllı və bacarıqlı olsa belə, özünü ondan zəif göstərərək, onun güclü olmasını təmin edir. Şərq qadınlarına məxsus olan bu mədəni keyfiyyətlər, Şərqdə patriarxal sistemin minilliklərdən keçərək, bu günədək davam etməsinə şərait yaratmışdır.

Lakin modernləşmə və gender bərabsizliyi prosesləri qadınlara cəmiyyətdə kişilərlə eyni hüquq və imkanları təqdim etdiyi üçün, müasir ailələrdə ənənəvi itaətkarlıq müşahidə olunmur. Çünki savadlı və iqtisadi müstəqil qadınlar cəmiyyətdə öz sosial statusları haqqında düşünürlər. Belə ailələrdə kimin sosial statusu və qazancı yüksəkdirsə, ailə üzərində onun nüfuzu daha artıq olur. Buna görə də, patriarxal düşüncəli kişilər savadlı və güclü qadınlarla ailə həyatı qurmaqdan ehtiyat edirlər. Onlar, qızların təhsil almalarına mane olur və onu ərindən asılı vəziyyətə salmağa çalışırlar. Qızların erkən ərə verilmələri də buradan qaynaqlanır. Çünki təhsili, bir sənət və peşəsi olmayan, ərindən maddi baxımdan tam asılı olan, erkən evlilikdə nikah müqaviləsi olmadığı üçün "havada qalan", ata evi və ər evindən başqa dünyada bir şey bilməyən qızların itaət etməkdən başqa bir çarələri qalmır. Onlar ərləri tərəfindən zorakılığa məruz qalsalar belə, yenə itaət etmək məcburiyyətindədirlər. Çünki onların geriyə yolunu nə ata evində (ər evi-gor evi), nə də cəmiyyətdə gözləyənlər vardır. Buna görə də, köhnə düşüncəli insanlar belə, qızlara və erkən evliliyə dəstək verirlər.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Bu qan qrupundan olan insanlar xərçəng xəstəliyinə tutulmur




İsveç alimləri xərçənglə ən az üzləşən qan qrupunu təyin ediblər. Müşahidələr göstərib ki, 1-ci qan qrupu olanlar arasında xərçəng xəstəliklərinə digər qruplarla müqayisədə qat-qat az təsadüf edilir.

Karolina İnstitutu (İsveç) alimləri 35 il (!) ərzində 1 milyondan çox insana nəzarət etdikdən sonra bu nəticələrə gəliblər. Digər qruplara gəldikdə isə 2-ci qan qrupu olanlarda mədə xərçəngi, 3 və 4-cü qan qruplarında isə mədəaltı vəzi xərçənginə daha çox təsadüf edilir.

## Piyadanı vurub qaçan sürücü tutulub




İyulun 17-də saat 23 radələrində Stansiya Mingəçevir-Bəhrəmtəpə yolunun Bərdə rayonunun Mirzəbəyli kəndi ərazisindən keçən hissəsində naməlum sürücü idarə etdiyi “Hovo” markalı avtomobillə yolun kənarında dayanmış Qaraməmmədli kənd sakini R.Quliyevi vuraraq hadisə yerini tərk edib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin avtomobil Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının 13-cü tağımının əməkdaşları tərəfindən Otuzikilər kəndinin ərazisində saxlanılıb. Araşdırmalarla sürücünün Bərdə rayon sakini İ.Nəsibov olması, habelə onun sərxoş halda və sürücülük hüququ olmadan avtomobili idarə etməsi müəyyənləşdirilib. Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən faktla bağlı araşdırma aparılır.

## Biləsuvar sakinindən altı kiloqrama yaxın narkotik vasitə götürülüb



Biləsuvar Rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini P.İsmayılovun idarə etdiyi “Mercedes” markalı avtomobildən 330 qram heroin və 540 qram metamfetamin aşkarlanıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılmış əməliyyat tədbirləri ilə onun Abşeron rayonunun Mehdiabad qəsəbəsində kirayədə yaşadığı evdən isə 2 kiloqram 443 qram heroin, 572,682 qram metamfetamin və 3 kiloqram 245 qram marixuana aşkarlanaraq götürülüb. Faktla bağlı araşdırma aparılır.

## Rusiyaya ilk qar yağıb



Yakutiyaya ilk qar yağıb. Trend-in məlumatına görə, bölgədə gündüz saatlarında müsbət 9 dərəcə isti olduğu halda gecə saatlarında dağlıq ərazilərə qar yağıb. Bildirilir ki, hazırda sürəti saniyədə 9-14 metrə çatan güclü külək də müşahidə olunur. Küləyin yağışla müşayiət olunduğu qeyd edilir.

### ELAN

STAR İNOX-R Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus dövlət qeydiyyatı N: 1201966291 VÖEN itdiyi üçün etibarsız sayılır.

# Rusiyalı tələbələr BSU-nun qonağı olublar





Məlum olduğu kimi, Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi və Azərbaycan-Rusiya Ali Təhsil Müəssisələri Assosiasiyasının təşəbbüsü ilə iyulun 15-dən Sumqayıt Dövlət Universitetində “Odlar Yurdu Azərbaycana səyahət” Tələbə Yay Məktəbi fəaliyyətə başlayıb. Yay məktəbində Rusiya Federasiyasından Samara Dövlət Texniki Universitetinin, Ural Dövlət Dağ-Mədən Universitetinin, Rusiya Dövlət Pedaqoji Universitetinin, Şimali Qafqaz Federal Universitetinin, Kuban Dövlət Universitetinin, Dağıstan Dövlət Universitetinin professor-müəllim və tələbə heyəti iştirak edir.

Dünən Rusiyadan gəlmiş qonaqlar Bakı Slavyan Universitetində olmuş, universitetdə fəaliyyət göstərən Heydər Əliyev Mərkəzi, kitabxana, Erazmus layihəsi üzrə Treninq-Tədris Mərkəzi, Rusiya Tədris-Mədəniyyət Mərkəzi, akt zalı, universitet kitabxanası və muzeyi, Şəhidlər Guşəsi ilə yaxından tanış olublar. Qonaqları universitetin tədris işləri üzrə prorektoru, professor Telman Cəfərov qəbul etmiş, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasındakı tarixi dostluq və qardaşlıq münasibətləri, bakalavriat və magistratura səviyyələrində müxtəlif ixtisaslar üzrə mütəxəssis hazırlığı proqramları barədə onlara ətraflı məlumat verib. O, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində, daha da dərinləşən Rusiya-Azərbaycan dostluq əlaqələrinin bu gün Azərbaycan Prezidenti tərəfindən uğurla davam etdirildiyini bildirib. Prorektor ölkələrimiz arasında iqtisadi- mədəni sahədə əməkdaşlıqla yanaşı, elm və təhsil sahəsində də ikitərəfli münasibətlərin genişləndiyini qeyd edib. O, 2015-ci ildə əsası qoyulan və bu gün hər iki dövlətin 53 universitetini birləşdirən Rusiya-Azərbaycan Universitetləri Assosiasiyasının təhsil sahəsində əməkdaşlığın möhkəmlənməsi istiqamətində ciddi addımlar atdığını bildirib.

Akt zalında universitet həyatından və BSU-nun nəşr etdiyi “Rus dili və ədəbiyyatı Azərbaycanda” elmi-kütləvi jurnalının fəaliyyəindən bəhs edən videoçarx nümayiş olunub, Əcnəbi tələbələrlə iş üzrə dekan Ü.Məmmədova rusiyalı tələbələrə BSU-da təhsil imkanları və əcnəbi tələbələr üçün yaradılmış şərait barədə məlumat verib.

***ZÜMRÜD BAYRAMOVA***

## Arda Turanın 3 milyonluq yaxtası



Futbol kariyerasına “Başakşehir” komandasında davam edən Arda Turan ötən yay 3 milyon lirəyə yaxta almışdı. Axşam.az xəbər verir ki, hazırda Ardanın həyat yoldaşı Aslıhan Doğan və oğlu Həmzə Arda yaxtada tətildədir. Bildirilir ki, yaxtada bir kral dairəsi, 3 ayrı otaq var. Lüks otellərdən seçilməyən yaxta 24 metr uzunluğundadır.

## Türkiyəli aktyor sevgilisini küçədə döydü

Türkiyəli aktyor Metin Yıldız sevgilisi Gözde Kayranı döyüb. Axşam.az xəbər verir ki, altı il öncə həyat yoldaşını döydüyünə görə boşanan sənətçi daha bir qalmaqala imza atıb. Belə ki, cütlük məkanların birində əylənməyə gedib. Cütlük öncə avtomobildə mübahisə etməyə başlayıb. Daha sonra maşından eniblər. Bu zaman isə Metin Gözdeni vurub. O, sevgilini bağışlamayıb və polisə müraciət edib. Qeyd edək ki, ötən il də Metinin Gözdeni vurması barədə xəbərlər yayılmışdı. Lakin aktyor çıxan məlumatları təkzib etmişdi. Gözde Kayra açıqlamasında “Elə bildim ki, düzələcək. Amma alınmadı. İç üzünü gördüm. Ailəm də birlikdə olmağımızı istəmirdi” deyə, bildirib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**